# XUDAFƏRİN

"Xudafərin harayından qalan mən!.."



*Qəzet 1932-ci ildən çıxır* № 3-4 (6869-6870) 21 mart 2023-cü il


# Novruz bayramınız mübarək!

## İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki



Əziz bacılar və qardaşlar.

Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Üçüncü dəfədir ki, Azərbaycan xalqına Novruz təbriklərimi doğma Qarabağ diyarından deyirəm. Bu, böyük xoşbəxtlikdir. Bu xoşbəxtliyi bizə bəxş edən qəhrəman şəhidlərimizin əziz xatirəsini bu gün biz hörmətlə yad edirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bu xoşbəxtliyi bizə bəxş edən qəhrəman Azərbaycan hərbçilərini buradan səmimiyyətlə salamlayıram. Onların canı-qanı bahasına biz doğma torpaqlarımıza qayıtmışıq.

İkinci Qarabağ müharibəsi dövründə bütün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bütün Azərbaycan xalqını bir daha salamlayıram. Bütün Azərbaycan xalqına yeni-yeni uğurlar, yeni qələbələr arzulayıram!

Otuz ilə yaxın müddət ərzində torpaqlarımız işğal altında idi. Ermənistan xalqımıza qarşı etnik təmizləmə siyasəti aparırdı. Yüz minlərlə azərbaycanlı öz doğma torpaqlarından didərgin salınmış, qaçqın, köçkün vəziyyətinə düşmüşdür. Xalqımıza qarşı soyqırımı törədilmişdir, ədalətsizlik törədilmişdir, hərbi cinayətlər törədilmişdir. Biz bunu heç vaxt unutmayacağıq. Biz bunu heç vaxt unutmamalıyıq...

*Mən əziz xalqımı qarşıdan gələn Novruz bayramı münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm, bir daha çıxışımı məşhur olan sözlərlə tamamlamaq istəyirəm: "Qarabağ Azərbaycandır!".*

## Bayram münasibətilə görüş keçirildi

Martın 16-da "Xudafərin" şadlıq sarayında Cəbrayıl rayon İcra Hakimiyyətinin, YAP rayon təşkilatının və rayon Ağsaqqallar Şurasının birgə təşkilatçılığı ilə şəhid ailələri və Qarabağ müharibəsi veteranları ilə Novruz bayramı münasibətilə görüş keçirilmişdir.

Dövlət Himnimizin səsləndirilməsi və şəhidlərimizin xatirəsinin anılması ilə başlanantədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov çıxış etdi. O, çıxışında tədbir iştirakçılarını salamlayıb, Novruz təbriklərini çatdırdı. Bildirdi ki, Novruz bayramı həm də Şərq aləmində yeni ilin başlanğıcıdır. Bu gün bizim başımız ucadır ki, torpaqlarımız işğaldan azaddır. Bu Qələbəni məhz Ali Baş Komandanımızın sərkərdəliyi ilə sizlər, sizlərin övladları öz canları, qanları bahasına bizə bəxş etdiniz. Biz, əslində, bu Qələbəni gözləyirdik. Çünki Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələndən etibarən ölkədə siyasi, iqtisadi sabitlik, bir sözlə, ölkədə canlanma hiss olunmağa başladı. Uğurlu daxili və xarici siyasətimiz öz bəhrəsini verdi.







Nəhayət, Ulu Öndərin layiqli davamçısı İlham Əliyevin sərkərdəliyi ilə 2020-ci ildə 44 günlük 2-ci Qarabağ müharibəsində biz 30 ilədək işğal altında qalan torpaqlarımızı geri qaytardıq. 3000-dək şəhidimiz oldu. Yüzlərlə yaralımız, yeni sağlamlıqlarını itirən əsgərlərimiz oldu. Bu qələbə siz şəhid ailələri və qazilərimizin sayəsində oldu. Bir daha sizi Novruz bayramı münasibətilə təbrik edir, uğurlar, cansağlığı, firavanlıq arzulayıram.

Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Məhərrəmov çıxışında qeyd etdi ki, rayon İcra Hakimiyyəti öz ənənəsini davam etdirir, bu gün yenə sizlərlə - Şəhid ailələri və qazilərlə bir yerdə bayram şənliyini qeyd edirik. Qeyd edim ki, bu yaxınlarda biz Cəbrayıla bir qrup rayon ağsaqqalları ilə səfər etmişdik. Çox xoş oldu bizim üçün vətən torpağına getməyimiz. Bu, əlbəttə, 44 gündə qəhrəman oğullarımızın şücaəti sayəsində qazanılan möhtəşəm qələbəmizin bəhrəsidir. Arzu edirəm ki, yaxın gələcəkdə biz öz doğma Cəbrayılımızda keçirdək belə bayramlarımızı, tədbirlərimizi. Mən buna inanıram. Bir daha bayramınız mübarək olsun!

Bayram tədbirində iştirak edən Milli Məclis üzvləri Aydın Mirzəzadə, Elman Nəsirli, Vüqar İsgəndərov, rayon Ağsaqqallar Şurasının fəxri sədri, "Xudafərin" şadlıq sarayının müdiri Səyavuş Əsgərov və başqaları çıxışlar edib, şəhid ailələri və veteranlarımıza bayram təbriklərini çatdırdılar.

Yeni yaradılmış "Xudafərin" teatr qrupu üzvlərinin hazırladığı Novruz tamaşası - Kosa, Keçəl, Bahar qızının iştirakı ilə oynanılan tamaşa xoş ovqatla qarşılandı.

Şair Fərzalı Abbasəlioğlu vətənpərvərlik mövzusunda şeirlərindən səsləndirdi, rayon musiqi məktəbinin direktoru Vüsal Zamanov və başqaları Novruz ovqatı üstündə vətənpərvərlik ruhlu mahnılar ifa etdilər.

Axırda tədbir iştirakçıları ayrı-ayrı qruplar halında xatirə şəkilləri çəkdirdilər.

**Şakir Əlifoğlu**

## "Beşgünlük dünya"nın mifik qanunları

İlaxır Çərşənbə bayramı ilə Novruz bayramı arasında altı gün vaxt qala bilər. Bu zaman ərəfəsi aralıq (liminal) zamana - xaotik duruma aiddir. "Dünya 5 gündü, 5-i də qara" deyimi bu zamana işarədir. Allah-təala dünyanı 6 günə ("Ol" deyib) yaradıb deyirlər. Məhz bu 5 gündən sonrakı 6-cı gündə artıq Allah-təala dünyani - yeni həyatın başlanğıcı sayılan Yeni dünyanı (Novruz dünyasını) yaradır. Ona görə də dünyanın 6 yox, 5 günlük "qara dünya" - qaranlıq, cəhənnəm, başqa sözlə, xaos dünyası olması qənaəti el dilində gəzib-dolaşır.

Bu ərəfələrdə insanların xaotik davranışları da xaos dünyasına xas bir şəkildə sistem təşkil etməklə təbiidir. Papaq atdısı da, qapı-pusdusu da, qapı-qapı (dilənçi sayağı) gəzməsi də və s. bu kimi müasir tarixi düşüncədə anormal, ya qeyri-adi görünən hərəkət və davranışlar insanların qəsdən xaos aləminə daxil olub, toparlanmaq enerjisi ilə yüklənməyə doğru yönələn ərəfələrdir. Unutmayaq ki, kosmos xaosdan törənib yaranır.

Bunu müasir həyatımızda svetoforun 3 işığı ilə də - qırmızı, sarı və yaşıl - müqayisə etmək olar. Qırmızı işıq dayan işarəsi verir. Sarı işıqda hökmən gözləməli olursan, sanki o an həyat-hərəkət dayanmış (dayanmağa məcbur edilmiş) olur. Ancaq yaşıl işığın yanması yenidən hərəkətə keçmək, irəliyə doğru sürət götürməyə istiqamətdir - işarədir. Yəni burada da, gördüyümüz kimi, orta zolaq (sarı işıq) məcburi dayanma əmri verir. Eləcə də köhnə illə yeni il olan Novruz bayramı arasındakı 5 günlük vaxt da liminal zaman aralığı olub, yeni bir həyata başlamaq üçün dayanma mərhələsidir. Fərz edək ki, svetoforun qırmızı və sarı işığına məhəl qoymayıb, dayanmadan ötüb keçmək həvəsinə düşərik, onda nə baş verər, xaos - yeni ölüm qalib gələr və həyatımız bir yolluq məhv olar. Bax beləcə də çərşənbələrdə və Novruzda elədiyimiz qeyri-adi hərəkətlər də buna müvafiqdir. Çünki biz o zaman təbiətlə eyni auraya, eyni ritmə girmiş oluruq. Svetoforda hərəkət dayandığı kimi, Novruzda da yaz gecə-gündüz bərabərliyi yaranır, tarazlıq baş verir, eyni zamanda sular dayanır, (zəmzəm suyu məsələsinə diqqət etsək, "zəmzəm" sözü dayanmaq, durmaq deməkdir), bir sözlə, kainatın sükunət halı yaranır və dünya xaosun ixtiyarında olur. Liminal zamana tabe oluruq. İnsanların su ilə fala baxmaları da məhz o məqama bağlıdır ki, sular da lal dayanıb, axmır, təbiəti dinşəmək və dinləmək, təbiətin sirrindən xəbərdar ola bilmək imkanıdır və o vaxt fala - gələcək taleyə baxmağa fürsət olur və s.



Başqa sözlə, svetofor insanların yaratdığı liminal zaman aralığı olmaqla insanların bilərəkdən hərəkəti (hərəkətdə olan həyatı) dayandırmaqla yenidən irəliyə hərəkət etmələri üçün səfərbər olunmağa xidmət edirsə, İlaxır çərşənbə və Novruz bayramları ərəfələri də İlahi tərəfindən, təbiətdən gələn liminal zamana insanların tabe olması anlamına gəlir. Bu səbəbdən də bu günün prizmasından qeyri-adi görünən çərşənbə və Novruz davranış və hərəkətlərinin mahiyyətində xaotik durumun tələblərinə uyğun kod və şifrələrin dayandığının fərqinə varmalıyıq. Mifik dünyanın qanunlarına söykənən anormal təsir bağışlayan hərəkətlərə və rituallara müasir dövrün baxışı ilə yanaşıb dəyərləndirmə aparası olsaq, yanlış düşüncələrə yol açmış olarıq. Bunlar "beşgünlük dünya"nın qanunlarından irəli gələn mifik görüşlərin sirləridir.


**Şakir Albalıyev**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent, AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi**

# Cəbrayılda "Heydər Əliyev İli" çərçivəsində yaz mövsümü ilə əlaqədar növbəti iməcilik keçirilib



**Respublika Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi və Ümummilli Liderin anadan olmasının 100 illiyi ilə əlaqədar respublikamızın hər yerində olduğu kimi, Cəbrayıl rayonunda da silsilə tədbirlər keçirilir.**

Tədbirlər Planına uyğun olaraq Martın 14-də "Heydər Əliyev İli" çərçivəsində Ümummilli Liderin anadan olmasının 100 illiyinə həsr olunmuş növbəti iməcilik keçirilib.

Cəbrayıl Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə əhalinin Biləsuvar rayonu ərazisində kompakt məskunlaşdığı Cəbrayıl qəsəbələrində keçirilən iməcilikdə rayonun idarə, müəssisə və təşkilatlarının kollektivləri, sakinlər fəal iştirak ediblər.

Müxtəlif məişət, polietilen və digər tullantılar ərazidən yığışdırılıb, yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilib, ağacların qurumuş budaqları budanıb, dibləri bellənərək ziyanverici həşəratlardan qorunmaq üçün gövdələri əhənglənib, yabanı quru, alaq otlar təmizlənib, səliqə-sahman yaradılıb.

# "Tarix yaradan şəxsiyyət" adlı tədbir keçirilib




02 mart 2023-cü il tarixdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar rayonun Dirili Qurbani adına Soltanlı kənd tam orta məktəbində "Tarix yaradan şəxsiyyət" adlı tədbir keçirilib. Tədbirdə Cəbrayıl rayon İcra Hakimiyyətinin məsul əməkdaşları, Milli Məclisin deputatı Ceyhun Məmmədov, Elm və Təhsil Nazirliyinin baş məsləhətçiləri Rövşən Ağayev, Əhliyət Adıgözəlov, Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin Cəbrayıl rayon sektorunun müdiri Zamiq Qurbanov iştirak ediblər.

Tədbiri giriş sözü ilə məktəbin direktoru Aygün Hüseynova açaraq Ulu öndərin həyatı, hakimiyyətə gəlişi, fəaliyyəti haqqında ətraflı, dolğun məlumat verdi. Çıxış edən natiqlər Ümummilli Lider haqqında öz fikirlərini tədbir iştirakçıları ilə bölüşdülər. Tədbir məktəblilərin ifasında vətənimiz Azərbaycana, Ümummilli lider Heydər Əliyevə, onun Vətən sevgisinə həsr olunmuş şerlərlə davam etdirildi. Dünya səviyyəsində tanınmış şəxsiyyət olan Ulu öndər barəsində dahi, tanınmış şəxslərin, dünya dövlətləri liderlərinin söylədikləri çox maraqlı fikirlər, eyni zamanda H.Əliyevin özünün tarixə düşmüş qızıl kəlamları, nəsihətamiz sözləri səsləndirildi. Dahi rəhbərin həyatından, fəaliyyətindən bəhs edən videoçarx təqdim olundu. İfa olunan "Bayatı şiraz" muğamı, "Heydər xalqım deyəcək, xalq Heydər söyləyəcək" mahnısı iştirakçılarda həzin, kövrək hisslər doğurdu. İbtidai sinif şagirdləri "Biz gənc Heydərçilərik" şüarı altında xalqın bu vətənpərvər oğlunun hər sahədə davamçısı olacağını fəxrlə, iftixar hissi ilə qeyd etdilər. Üçrəngli bayrağımıza həsr olunmuş rəqs ifa olundu. Şagirdlər ümummilli liderin müxtəlif sahələrdə - ordu quruculuğu, təhsil, mədəniyyət, gənclərə qayğı, hüquq, iqtisadiyyat, daxili və xarici siyasət və s sahələrlə bağlı atdığı ən mühüm, önəmli addımları diqqətə çatdırdılar. Sonda müstəqilliyimizə həsr olunmuş kompozisiya təqdim olundu və üçrəngli Azərbaycan bayrağı səhnədə qürurla dalğalandırıldı.

# Cəbrayıl rayonunun ən uzunömürlü qadını Neciyeva Qızbəs Qurban qızı ziyarət olunub



06 mart 2023-cü il tarixdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısının müavini Fəridə İbayeva və İcra hakimiyyətinin məsul əməkdaşları 8 Mart-Beynəlxalq Qadınlar Günü münasibətilə rayonumuzun ən uzunömürlü qadınlarından olan, Böyük Mərcanlı kənd sakini, 99 yaşlı Qızbəs nənəni evində ziyarət ediblər. Səmimi görüş zamanı nənəni Cəbrayıl Rayon İcra Hakimiyyətinin Başçısı Kamal Həsənovun adından təbrik edib, xoş arzularını çatdırıblar.

Rayonumuzun uzunömürlü qadını Qızbəs nənənin 10 övladı, 40 nəvə, 75 nəticə, 13 kötücəsi var.

Qızbəs nənəni təbrik edir və cansağlığı arzulayırıq.

# HEYDƏR ƏLİYEV - 100



# Gənclərimizə örnək həyat yolu

***Azərbaycanın çağdaş tarixi dünyaşöhrətli siyasətçi, dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu öndər, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev bəşəriyyətin yetirdiyi ən böyük tarixi şəxsiyyətlərdəndir.***

Heydər Əliyev fenomeninə, istedadına və şəxsiyyətinə dünyanın ən aparıcı ölkələrinin dövlət başçıları da çox yüksək qiymət vermişlər. İngiltərənin keçmiş baş naziri Marqaret Tetçerin qənaətinə görə, Heydər Əliyev zəmanəmizin ən görkəmli siyasi xadimlərindən idi. Amerika sosioloqu, dövlət xadimi Zbiqnev Bjezinski Heydər Əliyevin uzaqgörənliyini, dərin məntiqə malik olmasını önə çəkərək deyirdi: "Heydər Əliyev Azərbaycanda demokratiyanın və fikir plüralizminin, yeni iqtisadi və siyasi münasibətlərin qarantıdır". Dünyanın görkəmli dövlət və ictimai xadimləri H.Əliyevi politoloq Corc Vaşinqton və Franklin Ruzveltlə, Şarl de Qolla və Mustafa Kamal Atatürklə bir sıraya qoyur, ümummilli liderimizi təkcə Azərbaycanın deyil, bütün türk dünyasının lideri kimi görürdülər.

Dünyanın ən məşhur dövlət xadimlərinin portretlərini çəkmiş görkəmli rəssam Nikos Safronov Heydər Əliyevin 80 illik yubileyi münasibətilə onun portretini çəkərkən dahi rəhbərimizlə ünsiyyətdə olduqdan sonra bu qənaətə gəlmişdir ki, Heydər Əlirza oğlu Əliyev Tanrının yaratdığı möcüzədir, belə şəxsiyyətlər min ildə bir dəfə dünyaya gəlir.

Ulu öndərin mənalı həyat yolu bugünkü gənclərimiz üçün örnəkdir. Zəhmətkeş ailədə boya-başa çatmış Heydər Əliyev hələ gənc yaşlarından həmyaşıdlarından əzmkarlığı, prinsipiallığı, zəhmətsevərliyi, sözübütövlüyü, dosta sədaqətliliyi, vətənini dərindən sevməsi və digər xüsusiyyətləri ilə fərqlənib. Heydər Əliyev fenomenal yaddaşa, dərin təfəkkürə, sarsılmaz iradəyə malik idi. O, orta məktəbi fərqlənmə diplomu ilə bitirmişdi. Onun müəllimi 100 yaşlı Lətif Hüseynzadənin sözlərinə görə, Heydər Əliyev çox istedadlı və əlaçı tələbə kimi hamının diqqətini cəlb edirdi.

Azərbaycanın 1969-cu ildən bəri yaşanan dövrü xalqımızın tarixinə Heydər Əliyev epoxası kimi əbədi həkk olunmuşdur. Bu dövrdə sənaye, kənd təsərrüfatı, elm, mədəniyyət, təhsil, səhiyyə və digər sahələr dinamik inkişaf etdi. Azərbaycan SSRİ miqyasında 13 dəfə sosializm yarışında qalib gələrək ittifaqın Keçici qırmızı bayrağını almış, 5 yüksək dövlət ordeninə layiq görülmüşdür. Bakıya Lenin qızıl ordeni təqdim edilmişdir. Heydər Əliyev iki dəfə Sosialist Əməyi Qəhrəmanı kimi ən şərəfli ada layiq görülmüşdü.

1970-1980-ci illərdə dənizdə neft istehsalının artırılmasına xüsusi diqqət verilirdi. Neftayırma zavodlarının gücü bir neçə dəfə artırıldı, böyük həcmli elektrik stansiyası tikildi, müxtəlif sənaye müəssisələri, zavodlar, fabriklər istifadəyə verildi.

Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin I müavini işləyərkən nəqliyyat, elm, təhsil, səhiyyə, mədəniyyət kimi çox mühüm sahələrə baxırdı. O, həmin vəzifədə çalışarkən SSRİ tarixində ilk dəfə Amur-Baykal magistral dəmir yolunun - bu nəhəng tikintinin həyata keçməsinə nail olur. Təəssüf ki, 1985-ci ildə rəhbərliyə gələn ermənipərəst M.S.Qorbaçov məhz ermənilərin təhrikilə Sov.İKP Siyasi Bürosunun üzvləri olan türk mənşəli Kunayev, Rəşidov və Əliyevi rəhbərlikdən kənarlaşdırdı və SSRİ-nin dağılmasına zəmin yaratdı.

M.S.Qorbaçova və ittifaq rəhbərliyində olanların mühüm himayəsinə arxalanan ermənilər çoxdan bəri göz dikdikləri və bir neçə dəfə də uğursuz cəhd etdikləri Azərbaycanın Qarabağ bölgəsinə ərazi iddialarını yenidən gündəmə gətirdilər. Əgər xalqımızın böyük oğlu Heydər Əliyev o vaxt rəhbərlikdə olsaydı, bu hadisələr, eləcə də 20 Yanvar faciəsi baş verməzdi.

Ümummilli liderimiz onillik prezidentliyi dövründə bir insan ömrünə sığmayan nəhəng işlər gördü, 8,5 milyon əhalisi olan Azərbaycanı dünyanın ən nəhəng ölkələri sırasına çıxartdı, respublikamızın şöhrətini zirvələrə yüksəltdi. Siyasət və iqtisadiyyat, elm və mədəniyyət sahələrində ən inkişaf etmiş xalqlarla yanaşı addımlamağa başladıq. Ümummilli liderimizin çiyinləri üzərində demokratik, hüquqi və dünyəvi dövlətin təməli qoyuldu. Onun bilavasitə rəhbərliyi ilə ilk milli Konstitusiyamız hazırlandı. Ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiya həm bu günümüzün, həm də gələcəyimizin müqəddəs kompasıdır.

**Ulu öndərimiz Heydər Əliyev ana dilimizin, əlifbamızın və milli-mənəvi dəyərlərimizin bərpası, inkişafı və müdafiəsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. Onun çoxşaxəli fəaliyyəti azərbaycançılıq, türkçülük qayəsi üzərində köklənmişdi. O, deyirdi: "Azərbaycana məhəbbət, xalqıma məhəbbət mənim qanımdadır, beynimdədir, varlığımdadır. Heç kəs, heç bir qüvvə bu məhəbbəti məndən ala bilməz".**

Azərbaycançılıq ideyası ümummilli liderimizin siyasətində aparıcı yer tutur. Məhz onun səyləri və başçılığı ilə Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı diasporumuzun təşəkkülündə, 50 milyonluq azərbaycanlıların həmrəylik və birliyinin təmin olunmasında böyük rol oynamışdır.

Adi bir həqiqətdir ki, iqtisadiyyatı zəif olan hər hansı ölkənin güclü diplomatiyası, inkişaf etmiş mədəniyyəti də ola bilməz. Bunu nəzərə alan Heydər Əliyev respublikamızın iqtisadi qüdrətini artırmağı qarşısına əsas məqsəd qoydu. Onun təşəbbüsü ilə Azərbaycan bazar iqtisadiyyatı prinsipi əsasında qərbə inteqrasiya yolunu tutdu. 1996-cı ildən başlayaraq Azərbaycan iqtisadiyyatı inikşaf yoluna qədəm qoydu.

**Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyev sözün həqiqi mənasında böyük insan idi. Həyatının mənasını yalnız xalqına xidmətdə görürdü. Çox sevindirici haldır ki, ümummilli liderimizin başladığı işlər bu gün onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.**

**Sahib SÜLEYMANOV,**
*Cəbrayıl Rayon Statistika İdarəsinin rəisi*

# Cəbrayıl rayon İcra hakimiyyətində müşavirə keçirilmişdir



**10 mart 2023-cü il tarixdə Cəbrayıl rayon İcra Hakimiyyətində cari məsələlərlə bağlı müşavirə keçirilib. Müşavirədə Cəbrayıl rayon İcra hakimiyyətinin başçısı Kamal Həsənov, aparatın məsul əməkdaşları, İnzibati Ərazi Dairəsi üzrə nümayəndələri, idarə və müəssisə rəhbərləri, Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin Biləsuvar MKİS-nin cavabdeh şəxsləri (sahə nəzarətçiləri) iştirak ediblər.**

Müşavirəni giriş sözü ilə açan rayon rəhbəri yaz mövsümü ilə əlaqədar olaraq rayon ərazisində aparılan abadlıq-quruculuq və yenidənqurma işləri, mövcud sanitar-gigiyenik vəziyyətdən söhbət açıb. Milli bayramımız olan Novruz bayramının gəlişi ilə əlaqədar idarə və müəssisələrdə iməciliklərin keçirilməsi, yol kənarlarında və qəsəbə daxilində mövcud ağacların diblərinin bellənməsi, budanması, ağardılması, suvarılması ilə bağlı tapşırıqlar verib. Barama mövsümü ilə əlaqədar yardımçı tikililərin təmizlənməsi, ağardılması, baytarlıqla razılaşdırılmaqla dezinfeksiya edilməsi aidiyyəti qurumların nəzərinə çatdırılıb. Eyni zamanda rayon ərazisində keçirilən iməciliklə əlaqədar idarə və müəssisə kollektivlərini, qəsəbə sakinlərini iməcilikdə fəal iştirak etməyə çağırıb.

# *Şabran rayonu, Qarabağlar köçkün qəsəbəsində səyyar görüş*

**13 mart 2023-cü il tarixdə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Şabran rayonu, Qarabağlar köçkün qəsəbəsində məskunlaşan cəbrayıllılarla səyyar görüş-qəbul keçirib. Səyyar qəbulda rayon İcra Hakimiyyəti başçısı aparatının məsul əməkdaşları, ərazidə məskunlaşan rayon əhalisi iştirak ediblər.**



Görüşdə çıxış edən rayon İcra Hakimiyyəti başçısı Kamal Həsənov görüş iştirakçılarını salamlayıb və bildirib ki, cənab Prezidentin tapşırığına əsasən yerlərdə əhali ilə səyyar görüş-qəbulların keçirilməsində əsas məqsəd hazırkı mövcud vəziyyəti rayon sakinlərinin dilindən öyrənərək həlli mümkün olan məsələləri yerində həll etmək, ehtiyac olduğu halda aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırmaqdır.

Səyyar görüş-qəbulda sakinlər bir sıra məsələlərlə bağlı rəy və təkliflərini bildiriblər. Səslləndirilən hər bir təklif və problemlər ayrı-ayrılıqda dinlənilib, onların araşdırılması və icrasına nail olmaq məqsədilə görüləcək tədbirlər qeyd olunub, müvafiq tapşırıq və tövsiyələr verilib.

# İcra hakimiyyətinin qərargahında rayon sakinləri ilə səyyar görüş

**06 mart 2023-cü il tarixində Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Bakı şəhəri, Nərimanov rayonunda yerləşən Cəbrayıl rayon İcra hakimiyyətinin qərargahında rayon sakinləri ilə növbəti səyyar qəbul keçirib. Keçirilən görüşdə Rayon İcra Hakimiyyəti başçısının aparatının məsul əməkdaşları və rayon sakinləri iştirak ediblər.**



Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov respublikada əhalinin rifah halının yüksəldilməsi istiqamətində həyata keçirilən sosial-iqtisadi islahatlar, aparılan abadlıq-quruculuq işləri, sakinlərin rahatlığının təmin olunması, sahibkarlığın inkişafı, vətəndaş məmnunluğunun artırılması istiqamətində görülən işlər barədə məlumat verərək, sakinləri fərdi qaydada dinləyib. Sakinlər tərəfindən qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunub, araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verib.

Görüşdə iştirak edən rayon sakinləri ölkədə və eləcə də işğaldan azad olunmuş ərazilərdə gedən abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirərək, müraciətlərinə diqqət və həssaslıqla yanaşıldığını və onlara yaradılan şəraitə görə məmnun qaldıqlarını bildiriblər.

# ÖLÜM SON DEYİL Kİ...

*(Polkovnik-leytenant İsa Əkbər oğlu Xudiyevin əziz xatirəsinə)*



Bəşər övladı uzun tarixi yol keçib. Dirilik suyuna can atan dünya fatehləri yarı yolda qalıb.Ölüm nə şaha, nə də gədaya baxıb, "gələn getməlidir" hökmünü verərək qılıncını siyirib. Sənin, mənim olan dünya, əslində heç kəsin olmayıb. Əbədi dünya əbədi həyat eşqində olanlara qəh-qəh çəkib.

İnsan oğlu qəribə tale yaşayır. Doğulduğu andan ölümünə doğru gedir. Gəlişiylə bir ailəyə, bir nəslə sevinc gətirir, gedişiylə bir eli yasa boğur. O adamlar sevilir ki, yalnız özləri üçün yaşamayıblar, ömürlərini şam kimi xalq yolunda əridiblər. Xeyirxah əməlləri ilə yaddaşlara köçüblər. Belə nurlu insanlardan biri də polkovnik-leytenant İsa Əkbər oğlu Xudiyevdir.

O, 31 mart 1962-ci ildə Cəbrayıl rayonunun Daş Veysəlli kəndində anadan olub. 1968-ci ildə Minbaşılı kənd orta məktəbin birinci sinfinə daxil olub, 1978-ci ildə Cəbrayıl şəhər orta məktəbini bitirib. 12 dekabr 1980-ci ildən 2 dekabr 1982-ci ilə kimi Moskva vilayətinin Ximki kəndində hərbi xidmətdə olub. Hərbi xidmətini başa vurduqdan dərhal sonra V.İ. Lenin adına Qırmızı Əmək Bayrağı ordenli Azərbaycan Pedaqoji İnstitutunun ( indiki N. Tusi adına APU) hazırlıq fakültəsində təhsilini davam etdirərək hərbi təlim və bədən tərbiyəsi fakültəsinə (1983-cü il) qəbul olunub. 1987-ci ildə həmin ali məktəbi əla və yaxşı qiymətlərlə başa vurub. İsa Xudiyev 1987- 1990-cı illərdə Cəmil Əhmədov adına Cəbrayıl şəhər orta məktəbində ixtisası üzrə müəllim işləməyə başlayır. 1991-ci ildə Zaqafqaziya Hərbi Dairəsi tərəfindən 2 nömrəli, 28.01.1991-ci il tarili əmrlə baş leytenant rütbəsi alaraq Cəbrayıl rayon hərbi komissarının köməkçisi təyin edilir. Əmək fəaliyyətini çağrışaqədər gənclərin hazırlığı üzrə baş müfəttiş vəzifəsində davam etdirir. Sonra bir müddət çağırış üzrə köməkçi işləyir. İşgüzarlığı, təşkilatçılıq bacarığı nəzərə alınaraq 30 oktyabr 1993-cü ildə hərbi komissarın müavini vəzifəsinə irəli çəkilir. On bir avqust 1994-cü il tarixli əmrlə kapitan hərbi rütbəsi alır və 20 noyabr 1994-cü ildə Cəbrayıl rayon hərbi komissarı olaraq xidmətə başlayır.

Cəbrayıl rayon hərbi komissarlığı şərəfli, örnək olası bir tarixi yol keçib. Bu komissarlığın səkkiz illik fəaliyyəti dövrü polkovnik-leytenant İsa Əkbər oğlu Xudiyevin adı ilə bağlıdır.

On beş may 2002-ci il tarixdə mayor İsa Xudiyev cəbhə bölgəsi sayılan Füzuli rayonunun hərbi komissarı təyin edildi və 24 iyun 2002-ci il tarixdə ona polkovnik-leytenant hərbi rütbəsi verildi.On üç avqust 2008-ci ilə kimi Füzuli rayon hərbi komissarı işləyən İsa Xudiyev, həmin tarixdən Masallı rayonuna hərbi komissar göndərildi.

Polkovnik-leytenant İsa Xudiyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 0251 saylı, 03.07.2009-cu il tarixli əmrinə əsasən həmin tarixdən ehtiyata buraxıldı. Onun vətən qarşısında xidmətləri daim yüksək qiymətləndirilib.Azərbaycan Respublikası Prezidentinin adından Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 063 t nömrəli, 26 iyun 2003-cü il tarixli əmri ilə polkovnik leytenant İsa Xudiyev "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə, 070 t nömrəli, 26 iyun 2003-cü il tarixli əmri ilə "AzərbaycanSilahlı Qüvvələrinin 10 illiyi (1991-2001)" yubiley medalı ilə, 090 t nömrəli 26 iyun 2008-ci il tarixli əmri ilə "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı ilə, 0145 t nömrəli, 19 iyul 2008-ci il tarixli əmri ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley medalı ilə təltif olunub.

Odun-alovun içindən keçib, ölümün gözünə dik baxanbir zabit necə oldu ki, 2010-cu ilin yeni il axşamı ölümə boyun əydi, yaşlı anasını, qız balalarını, qardaş boyu sevən bacılarını ağlar, gözüyaşlı qoydu. Bir neçə saat əvvəl təbrik etdiyi bacılarının - Səyyarə xanımın, Səyahət xanımın heç ağlına da gəlməzdi ki, gələn yeni il onlara qardaş itkisi gətirir. Bacılar indi də həmin günləri göz yaşları ilə xatırlayırlar: "İstəkli qardaş, sənin həyatını itirdiyin tarix-qara yanvar 2010-cu il səni tanıyanların, xüsusən də biz bacılarının ürəklərinin sağalmayan yarasıdır. On üç il nə tez keçdi...Gənclik illərin müharibə dövrünə düşdü. Çiyinlərində yükün çox ağır oldu. Vətənimiz, torpağımız uğrunda çox şəhidlər yola saldın. Bir gün özün də bilmədən əcəl sənə tuş gəldi. Sənin faciəli ölümün səni tanıyanların hamısını yandırıb yaxdı. Ananın, bacılarının xəbəri olmadı fələyin sənə qurduğu oyundan.

İsa, sənin acı taleyindən, yarımçıq ömründən söz düşəndə biz bacılarının nitqi tutulur. Ürəklərindəki sözləri dilə gətirə bilmirlər. Bütün Cəbrayıl ellərinin yas məclislərində səni sənə layiq ağlayırlar. Sənin yoxluğun qəlbimizdə elə bir boşluq yaratdı ki, bu boşluğu heç zaman doldura bilmədik. Həyatda yaxşı insan oldun, adın çəkiləndə hamı rəhmət deyir... Ruhun şad olsun, qardaş! Üreyimizdən keçənləri yenə də dilə gətirə bilmədik..."

Ölümünə yandıq, yaxıldıq. Nə çöhrəndəki ağsaqqal müdrikliyi ilə uşaq məsumluğunun vəhdətini qaytara bildik, nə də vaxtından çox erkən ağarmış saçlarının ağrı-acılı hekayətini dinlədik. Faciənin soyuq üzü iləolumla ölümün çarpışma izləri ilə üz-üzə qaldıq. "Torpağı işğalda olan zabitin əlamətdar günü olmaz" deyirdin. Əcəl səni elə əlamətdar gündə, ayaq üstə haqladı. Müdhiş bir təsadüflə sarsıldıq: 01 yanvar 2010-cu il.

P0lkovnik-leytenant İsa Xudiyevin faciəli ölümü sıradan, adi bir ölüm deyildi. "Ölüm haqdı" deyib müdriklər. Odun-alovun içindən içindən keçərək zabit mundirini şərəflə daşıyan, iyirmi il hərbi komissarlıqlarda, o cümlədən on yeddi il hərbi komissar işləyərək müxtəlif bölgələrdə dərin hörmət qazanan, ömrünün qırx səkkizinci baharını görə bilməyən bir şəxs üçün "ölüm haqdı" deyə bilmərəm. Mən desəm də bacıları Səyyarə xanım, Səyahət xanım, qız balaları Aytən, Aytac...bunu qəbul edərmi? Əsla, yox! Ancaq istəsək də, istəməsək də bu acı həqiqəti qəbul etmək məcburiyyətindəyik:

Məni görən ağlasın,
Zülfün hörən ağlasın.
İndi görən tanımaz,
Əzəl görən ağlasın.

Cəbrayıl adlı gözəl məkana, Daş Veysəlli kəndindəki ata-baba ocağına qovuşmaq üçün yeridikcə yeridin. Amansız və vaxtsız ölüm saxladı səni köç karvanından. Bu köç sənin arzuladığın köç idi. Ellərimiz Cəbrayıla dönməyə hazırlaşır və dönəcək də. Sənsiz olsa da...

**HİDAYƏT SƏFƏRLİ**



# SU ÇƏRŞƏNBƏSİ

**Tədqiqatlarda üçü yalançı, dördü isə doğruçu çərşənbə olmaqla yeddi çərşənbənin keçirilməsi ilə bağlı məlumatlara da rast gəlirik. Üç yalançı çərşənbənin ("Oğru üskü") birinin - yəni sonuncusunun bəzi bölgələrdə anılması (qeyd olunması) faktı bu gün də mövcuddur. Adında ifadə olunduğu kimi, yalançı çərşənbələr yalandan - sönük şəkildə qeyd olunduğundan, görünür, sonradan bu üç çərşənbənin hamısını cəmləşdirməklə sonuncusunda ümumi bir törən keçirməyi daha uyarlı - məqbul hesab edib xalqımız. Ancaq bu "yalan"ın özündə də bir "qabaqdangəlmişlik eləmək" - yəni simvolik olaraq qarşılamaq missiyası var. Çünki bu yalançı çərşənbələr "doğrunu" gözləməyə - doğruçu çərşənbələri ümidlə bəkləməyə bir hazırlıq mərhələsi - özünü toparlama instinktidir.**

Əslinə qalsa, doğruçu çərşənbələrlə bağlı da buna bənzər bir hal müşahidə olunmaqda, sezilməkdədir. Bunu kütlə, toplum ilaxır çərşənbənin daha şən və təmtəraqlı keçirilməsi kimi səciyyələndirir. Hətta bəzi bölgələrdə ilin axırıncı çərşənbəsinin Novruz bayramına nisbətdə daha böyük coşqu ilə keçirilməsini söyləyənlər də var. Təəssüflər olsun ki, mütəxəssislər, folklorşünaslar ilin son çərşənbəsinin digər çərşənbələrə nisbətən daha böyük şadyanalıqla, haray-həşirlə keçirilməsinin səbəbini onu simvolizə edən ünsürlə (torpaqla, yellə və s.) əlaqələndirirlər: guya torpaq bar-bərəkət simvolu olduğu üçün və s. Düzdür, bu əlamətin də rolu var. Ancaq əsas və başlıca səbəb onunla bağlıdır ki, yuxarıda qeyd etdiyim kimi, üç yalançı çərşənbə sonuncu yalançı çərşənbədə adına uyğun şəkildə "yalandan" - sönük şəkildə qeyd olunduğu kimi, dörd doğruçu çərşənbənin də sevinc dolu coşqusunun ən parlaq təzahürü - ən pik həddi məhz sonuncu doğruçu çərşənbənin - ilin son çərşənbəsinin üstündə ümumiləşmiş olur. Hansı ünsürün, hansı təbiət stixiyasının (su, od, torpaq, yel) adını daşımasından asılı olmayaraq, məhz sonda, axırda gəldiyinə görə və insanlar təbiətin çillələrindən bütövlükdə qurtulub xilas olmağın şərəfinə ilin axır çərşənbəsini daha çox həvəslə və böyük ruh yüksəkliyi ilə bayram edirlər. Bu coşqunun sirri təbiətdən gəlir və insanlar çillədən qurtulmanı elliklə, kütləvi olaraq bu cür yüksək əhval-ruhiyyə ilə şənlik içərisində keçirirlər. Bunu təbiət hadisəsinin cəmiyyətdəki əks-sədası (assosiasiyası) kimi də dəyərləndirmək olar.

Dörd doğruçu çərşənbənin hər birini tədqiqatçılar müvafiq olaraq təbiətdəki dörd yaradılış ünsüründən birinin adı ilə bağlayırlar. Bu haqda mərhum professor, görkəmli folklorşünas Azad Nəbiyev yazır: “Əzəl çərşənbə suya tapınma inancı ilə başlayır. Hamı hələ gün doğmamışdan su üstünə gedir, təzə suda əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyər, su üstündən atlanar, yaralıların yarasına su səpirdilər. İnanca görə “təzə su” - daha doğrusu, Əzəl çərşənbənin sübh tezdən köpüklənən ağ suyu dərdlərin dərmanı idi. Ehtimal ki, Xızırın dirilik çeşməsindən su içdiyi, Koroğlunun ”Qoşa bulağı” tanıdığı gün də elə Əzəl çərşənbə günü olmuşdur.

Əzəli inamlarda su sağlamlığın rəhni idi. Su çərşənbəsi günü ”təzə su”dan keçənlər, azarını-bezarını ona verənlər ilboyu xəstəliklərdən uzaq olardılar. Elə həmin gün su üstündə bir sıra ayinlər icra edilərdi. Səsi batanlara, danışa bilməyənlərə bu sudan içirdərdilər. Bir çox xəstəliklər Su çərşənbəsində sağaldılardı.

Su qırağında, bulaq başında, arx kənarında suyu çağıran, onun qüdrətini, böyüklüyünü, müqəddəsliyini tərənnüm edən nəğmələr oxunardı”.



Göründüyü kimi, ilk doğruçu çərşənbəni su stixiyası ilə bağlayan professor suyun yaradıcı gücü, şəfaverici xassələri ilə bağlı mifik inancları da yada salır.

Məlumdur ki, qış fəslinin içindən keçərək yaz fəslinə doğru - Bahar bayramına, Novruz bayramına doğru yaxınlaşırıq. Çillələr də - yəni ilaxır çərşənbələr də qış fəslində - qışın üçüncü ayı olan Boz ayda bayram ab-havası ilə keçirilir. Hər çərşənbə öz atributu ilə - bir yaradıcı təbiət stixiyasını təmsil etməklə, həm də özlüyündə təbiətin müəyyən bir fəslini simvollaşdırır. Bu baxımdan düşündükdə, su çərşənbəsi həm də qışı işarələyir. Suyun donmuş - ölmüş, cansız halı kristallaşmış qar formasında, yaxud buz şəklində qış fəslində təzahür edir. Bu səbəbdən qışı dörd yaradıcı ünsürdən biri olan su stixiyasının fəaliyyətdən qaldığı, donduğu təbiətin ağır çilləli dövrü kimi xarakterizə etmək olar. Belə olan təqdirdə su çərşənbəsinin ayin və rituallarının nəyə hesablandığı məsələsi düşündürücüdür.

İnsanlar su çərşənbəsində çərşənbənin suya düşdüyü inancı ilə yaşayarlar. Yəni donmuş suyun donunun açıldığını, suyun canına istilik düşdüyünü - suya can gəldiyini (suyun ölmüş halı sayılan qar və buz halından xilas olduğunu) beləcə, bayram ab-havası ilə keçirərlər. Eyni zamanda su çərşənbəsində insanların su üstünə, bulaq, çay başına axın etmələri, suyu bir-birlərinin üstünə səpmələri və s. bu kimi ayin və rituallar hamısı həm də su əyəsinə xoş getməsi, su ruhunu razı salmaq, qış fəslini təqlidi yolla əzizləmək, qış fəslinin soyuq donunu - buzunu, qarını yumşaltmaq, mülayimləşdirmək və s. kimi missiya daşıyır. Başqa sözlə, donuq, qar kimi, buz kimi soyuq (sulu) qış fəslindən xilas olub həyatverici bahar fəslinə doğru can atmağın ritual olaraq cəmiyyətdəki əks-sədasıdır su çərşənbəsi! Əbəs deyildir ki, su tanrısı Abana xoş getsin deyə nəğmələr də çağırıb-oxumuşlar:

**Aban abana gəldi,**
**Aban imana gəldi.**
**Abana yol verin,**
**Abana qol verin.**
**Gödəkcə al Abana,**
**Döşəkcə sal Abana.**
**Al Aban haylı gəlib,**
**Al Aban paylı gəlib.**
**Xurcununda seli var,**
**Boxçasında yeli var.**
**Hay verin Abana,**
**Pay verin Abana.**
**Xan Aban haylı olsun,**
**Doqqazı saylı olsun...**

“Aban nəğmələri” silsiləsindən nümunə gətirdiyim yuxarıdakı misralarda da su tanrısını rəhmə gətirməyin, könlünü almağın musiqili bir dildə ritmik notları açıq-aydın hiss olunur. “Xurcununda seli var” misrasında isə birbaşa qarın-buzun rəhmə gəlib yumşalması - əriməsi hesabına çaylara axıb töküləcəyi - torpaqların barını - bərəkətini artıracaq sel-su gətirəcəyi fikri-arzusu qabarıq görünür. ”Hay verin, pay verin Abana” misralarından isə çərşənbə sovqatı vasitəsilə təqlidi - magik hərəkətlər fonunda su ruhuna pay-hədiyyə verilməsi arzusu görünür.

Su ilə bağlı qədimdən gəlmə türkçarələrə üz tutaq:

* Su çərşənbəsində övladı olmayan qadının başından qırxaçar camdan su töksən övladı olar.

* Su çərşənbəsində qorxan adamın başından üç dəfə sağdan, üç dəfə soldan su atsan qorxusu keçər.

* Ürəyi keçən adamın üzünə su çiləsən özünə gələr.

* Su çərşənbəsində qorxan adama qorxduğu yerdə su içirdərlər.

* Yel xəstəliyi olanı İstisuya apararlar.

Misal gətirilən inanc və türkəçarə üsullarına diqqət yetirdikdə, görünür ki, burada həm suyun mifik - magik təsir gücü, həm də real təsir gücü öz əksini tapıb. Bu da xalqımızın mifik dünyasında da, gerçək təfəkküründə də suyun təbii fakt olaraq nə qədər dərəcədə mühüm yer tutduğunun bir göstəricisidir. Mifik dünyamızda da, gerçək həyatımızda da su yaradılış ünsürü kimi müqəddəs sayılıb. Su çərşənbəsi isə mif və reallığın əlamətlərini ritual hadisə olaraq özündə yaşadır.

**Şakir ALBALISOY**

# OD ÇƏRŞƏNBƏSİ

Çərşənbələrin ikincisini od ünsürü ilə əlaqələndirən mərhum professor Azad Nəbiyev yazır ki, “Türkdilli xalqlarda Ülgen tanrısının yaranması da təsadüfi deyildir ki, Günəş - Od - Ateş anlamı ilə bağlıdır. Nisbətən sonralar zərdüştilik də Odun və Günəşin bu müqəddəsliyini saxlamış, oda sitayiş anlam və etiqadı yarandıqdan sonra Günəş - Od - Ateş istisinin beş növü ilə əlaqədar şənliklər keçirilmişdir...

...Od çərşənbəsində Günəş - Od - Ateş anlamı çox geniş ölçülərdə qəbul və dərk olunar, təbiətin dörd ünsüründən biri olan Oda erkən inam və etiqadlar silsiləsini yaradardı. Bu inanc dünyası isə Odun əbədiliyi, müqəddəsliyi tapınmasını doğurmuşdur.

Od çərşənbəsi - Günəş - Od - Ateş inamı ilə bağlı yaddaşlarda qalan bir çox nəğmə, etiqad, mərasim, mif və rəvayətlər bu günümüzə qədər gəlib çatmışdır”.

Göründüyü kimi, od çərşənbəsi günəşin bəlgəsi olaraq, atəşpərəstlikdə oda, atəşə inamın təzahürü olaraq səciyyələndirilir. Həm də od dörd yaradılış ünsüründən biridir. Yeni həyatın doğuluşu rəmzi olan Novruz bayramı qabağı keçirilən od çərşənbəsinin mühüm missiyası isə odun yaradıcı stixiyası ilə əlaqədardır. Bu münasibətlə təbii ki, müxtəlif cür ayin və rituallar, həmçinin nəğmələr vardır. Qodu xanla bağlı mərasim və oxunan nəğmədə də bunun arxaik izləri seçilir. Qodu günəşin rəmzidir. Günəşin rənginə uyğun şəkildə qırmızı parçadan düzəldilən gəlincik kukla ”Qodu” adlanır. Onu da deyim ki, Qodunu bütpərəstliklə əlaqələndirib, kuklanı isə Allahın bütü kimi də hesab edirlər. Ancaq bizə məlum mərasim və nəğmələrdə onun atəşpərəstliklə bağlı cizgiləri aydın görünür.

**Qodu xan, Qodu xan,**
**Söndürmə odu, xan.**
**At üstə ad gətir,**
**Ulusa od gətir...**
**Qodu xan daldadır,**
**Al atı yaldadır...**
**Qoduya at apar,**
**Dalınca çat apar.**
**Yalında yat apar,**
**Qan-tərə bat apar...**

**Qodu xan yoldadır,**
**Əlləri baldadır.**
**Büsatı daldadır.**
**Sözü bal Qodu xan,**
**Özü al Qodu xan.**

**Qodu xan Göy xandır,**
**Qodu xan Dağ xandır.**
**Qodu xan Ağ xandır.**
**Sözü bal Qodu xan,**
**Özü al Qodu xan.**

Nəğmənin nəqərat hissəsində təkrarlanan ”Özü al Qodu xan” ifadəsi od rəngində al (qırmızı) Qodu xana işarə edir. Yaxud əvvəlinci misralarda Qoduya mürациətlə söylənən “Söndürmə odu, xan”, “Ulusa od gətir” kimi ifadələr də Qodunun odla-günəşlə bağlılığına açıq işarə edir. ”Qoduya at apar” misrası isə öz yorumunu başqa bir folklor mətnində - “Günəşə qurban kəsmək mərasimi”ndə açıq-aşkar tapır:



Günəş istisini arzulayan ulu babalarımız Odlu çərşənbədə sübh tezdən günəşə qurban aparardılar. Daha erkən çağlarda aparılan belə qurban, adətən, kəhər at olardı. Bir nəfər yedəyindəki atı uca bir təpənin üstünə qaldırardı. Əlində balta olan başqa bir nəfər isə arxadan onları müşahidə edərdi.

Gün doğanda at təpənin üstündə olar, günəşin doğması şərəfinə onu qurban kəsərdilər.

Xalqda belə inam olardı ki, qırmızı kəhərin günəşə qurban kəsilməsi adamlara xoşbəxtlik və səadət gətirərdi.

Bu mərasim xalqımızın ən qədim görüşlərindən olub, bir sıra qayaüstü rəsmlərdə də əks olunmuşdur. Kəlbəcər qayaüstü təsvirlərində də bu mərasim qeydə alınmışdır”.

Professor Azad Nəbiyevin təqdimatından oxuduğumuz bu mətn “Qodu xan” nəğməsində söylənən “Qoduya at apar” misrasının üzərinə işıq salır. Deməli, Qodu Günəşin bəlgəsi, Qoduya aparılan at isə günəşin doğmasının şərəfinə kəsilən atı işarələyir. Bəs nəyə görə od çərşənbəsində, həmçinin bununla bağlı nümunə verdiyimiz mərasim və nəğmə mətnlərində oda bu qədər önəm verilir?

Məlumdur ki, qış fəsli təbiətdə gecənin - qaranlığın uzunluğu, çox olması ilə xarakterikdir. Deməli, qaranlığın işığı (metaforik olaraq şərin xeyiri) üstələdiyi soyuq-ölgün qışdan yaz fəslinə - ictimai səviyyədə Novruz bayramına qovuşmağın bir yolu da işıqdan-oddan keçir. İşığın mənbəyi, odun təbii batareyası isə günəşdir. Yazın gəlişi həm də gecə-gündüz bərabərliyi və ondan sonra isə gündüz saatlarının uzanması ilə xarakterikdir. Deməli, Novruz öncəsi keçirilən od çərşənbəsi mahiyyətcə magik - təqlidi xarakterli günəşi arzulama - istiliyi, odu öymə və qarşılama mərasimidir. Qışın donuq - ölgün suyunu (buzu və qarı) əritmək üçün mütləq od, günəş (istilik) lazımdır. Bax insanların od çərşənbəsi adı altında keçirdikləri mərasimin nüvəsində - fəlsəfi qatında təbiəti və cəmiyyəti qışın şaxtasından xilas edə biləcək odun-atəşin, günəşli günlərin gəlməsi arzusu, ideyası ifadə olunub. Torpağın, suyun, ümumiyyətlə, təbiətin canına istilik gəlmədir ki, oyanma, yeni həyat başlasın. Od, istilik bu cəhətdən ən vacib amil olduğuna görə bütün çərşənbələrdə (hətta yalançı çərşənbələrdə belə) və Novruz bayramının özündə tonqallar çatılır. Bax yandırılan ocaqlar, qalanan tonqallar günəşin, odun, işığın - başqa sözlə, həyatverici hərarətin bəlgəsi olmaqla odun yaradıcı gücünü təcəssüm etdirir.

Onu da qeyd edim ki, od həm də fəsil kimi yay fəslini özlüyündə simvollaşdırır. Fəsillər içərisində qızmar olması, yandırıcı günəş şüaları ilə fərqlənməsi məhz yay fəslinə xasdır. Bolluğun, bərəkətin, artımın himayəsi olan Günəşin yaradıcı gücünün stixial missiyası od çərşənbəsinin üzərinə düşən müqəddəs yükdür.

**Şakir Albalıyev (Alp Alı)**
*AMEA-nın aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent*

# NOVRUZ BAYRAMI: qadağalar və zərbələr

**Hər bir xalqın milli bayramı həm də onun milli varlığının ifadəsini göstərir, bir xalq kimi bütövlüyünün, mütəşəkkilliyinin göstəricisi kimi onu təsbit edir. Mifoloji və gerçək təfəkkürdə (bir) il adlı zaman vahidi özünəməxsus səciyyəvi əlamətləri baxımından ayrı-ayrı zaman intervallarına hesablanan dövri və qapalı təkrarlanan bayram günləri ilə müşayiət olunur.**

Hər bir xalq, etnos, millət özünün bir toplum, cəmiyyət olaraq dünyabaxışının, həyat-məişət tərzinin ifadəçisi olaraq belə günləri müqəddəsdəşdirir, ona bayram donu geyindirir. Xalqımızın etnik-milli kimliyinin əsas göstəricilərindən biri kimi belə bayramların başında il dəyişməsi ilə müşayiət olunan Novruz bayramı gəlir. Bu baxımdan Novruz bayramı xalqımızın milli ruhunun, yaşamının təcəssümüdür. Bir xalqı, bir milləti mənəvi olaraq məhv etməyin bir yolu da onun bayramlarına edilən təcavüzdür. ”Xalqımızın XIX yüzillikdəki Türkmənçay tarixi faciəsindən sonra imperiya ideoloqları müxtəlif yollarla Novruzu milli yaddaşdan silib ilhaq etdikləri ərazilərdə yeni-yeni bayramları dəbə mindirməklə onu gözdən salmağa, xalq içərisində unutdurmağa böyük ciddi-cəhd göstərdilər. Təəssüf ki, bu ənənə Sovetlər dönəmində daha ağrılı şəkildə davam etdirildi. Novruzun milli bayram kimi keçirilməsi üzərinə daha ciddi qadağalar qoyuldu, o, dini bayram hesab edilərək dövlət tərəfindən gözdən salındı. Ötən əsrin 60-cı illərindən ölkədə milli özünüdərkə böyük qayıdış başladığı zaman qadağalar da yavaş-yavaş səngidi. İnzibati-idarə aparatının yüksək vəzifələrinə milli kadrlar gəldikcə onlar fürsət düşdükcə milli dəyərlərin dirçəldilməsinə öz dəstəklərini verməyə başladılar. 1966-cı ilin əvvəllərində dövlət əhəmiyyətli yüksək vəzifəyə yenicə irəli çəkilən ulu öndər Heydər Əliyev yaranmış vəziyyətdən istifadə edərək Novruz bayramının Bakıda təntənəli şəkildə keçirilməsinə öz ilk töhfəsini verə bildi. Bu vaxt belə bir şərait yaranmışdı: keçmiş SSRİ ilə Türkiyə arasındakı münasibətlərdə bir istiləşmə başlamışdı. Ölkənin baş naziri A.Kosıginin Türkiyəyə rəsmi səfəri planlaşdırılmışdı. Bu münasibətlərin yaxşılaşdırılmasına böyük önəm verən dövlət ideoloqları türkdilli Sovet respublikalarının birində türklərlə çox səmimi münasibətlərin mövcud olduğunu nümayiş etdirmək üçün Novruz bayramını təntənəli şəkildə təşkil etməyi planlaşdırmışdılar. Səfərin hazırlıq mərhələsində Türkiyə Respublikasının prezidenti və baş nazirinin də Sovetlər ölkəsinə səfəri gündəmə gəldi. Özbəkistanda qeyd edilməsi nəzərdə tutulmuş Novruz bayramının Bakıda keçirilməsi qərarlaşdırıldı.

Bu təklifə Türkiyə tərəfi böyük dəstək versə də, onun reallaşması Azərbaycan rəhbərliyinin, xüsusən tədbirin keçirilməsinin tam təhlükəsizliyinə təminat verən Heydər Əliyevin böyük səyi nəticəsində mümkün oldu. Az sonra Azərbaycanda, xüsusən Bakıda Novruz bayramının keçirilməsinə böyük hazırlıq işləri başladı. Hazırlıq işlərinə və bayramın keçirilməsinə rəhbərlik xalqımızın görkəmli ziyalısı və Azərbaycan KP MK-nın ideoloji işlər üzrə katibi Şıxəli Qurbanova tapşırıldı. ”Bahar bayramı” adlı ilə keçirilən Novruz bir çox məhrumiyyətlərə məruz qalsa da, o il Azərbaycanda təntənəli şəkildə qeyd edildi. Bu da o vaxt SSRİ Ali Soveti Rəyasəti Heyətinin sədri işləyən A.Mikoyanın və onun əlaltılarının böyük qəzəbinə səbəb oldu. Erməni separatçılarının liderləri Levon Şaumyan, Mariyetta Şaginyan, Sero Xanzadyan və onlarla başqalarının imzası ilə Kremlə məktublar axını başladı. Bu məktublarda Sovet rəhbərlərinə Azərbaycanda dini bayramın bərpa edilməsi və bu ad altında geniş antisovet kompaniya aparılması barədə böhtanlar başlıca yer tutur, Azərbaycan rəhbərliyinin cəzalandırılması tələb edilirdi. Doğrudur, bayramın qadağası ilə bağlı Moskva rəsmi sənəd imzalamadı, ancaq Novruzun adının çəkilməsi yenidən yasaqlandı, bu barədə təbliğat və tədqiqat işləri üzərinə yenidən ciddi senzura nəzarəti qoyuldu. Azərbaycanda Novruzun bayram edilməsi yenidən qapandı. Novruz üzərindən qadağaların götürülməsindən xeyli sonra daha bir təşəbbüs edildi. Akademik Mirzə İbrahimovun yazdığı kimi, ”Azərbaycan Kommunist Partiyasının 1988-ci ilin noyabrında bu bayram üzərindəki qadağaları silib atmasını xalq böyük fərəh və ruh yüksəkliyi ilə qarşıladı...” ( bax: Novruz, toplu, Bakı, Yazıçı, 1989). Ancaq bu qərar kağız üzərində qaldı. Novruzun yenə ümumxalq bayramı kimi dövlət səviyyəsində qeyd edilməsi baş tutmadı. Bir toplu nəşr edilməklə, bir neçə məqalə yazılmaqla iş bitmiş hesab edildi. 1990-cı ildəki Qanlı Yanvar hadisələri zamanı hökumət ”matəm günlərində” bayram keçirmək olmaz” deyərək Novruzun üzərinə yeni yasaqlar qoydu. Ancaq mart günlərində akademik Fuad Qasımzadə Dövlət Televiziyasında, - ”Xalqı yasda saxlamaq olmaz, Novruz xalqı daha sıx birləşdirər” - deyə bayram nəşrləri üzərinə qoyulmuş qadağaları ləğv etməyə çağırdı, ilk dəfə olaraq televiziya efirində ”İlaxır çərşənbələr” barədə silsilə verilişlərlə çıxış edib xalqı öz milli dəyərlərini qoruyub saxlamağa çağırdı.

1992-cı ildə bayramın tarixini, adət-ənənələrini əks etdirən ”Novruz bayramı” adlı yeni suvenir əsər çap edildi (bax: Novruz bayramı, Bakı, ”Yazıçı” nəşriyyatı, 1992). Ölkəmizdə xalqın böyük ruh yüksəkliyi ilə öz milli dəyərlərini yaddaşa qaytarmasının yeni mərhələsi başladı.

Fərəhli haldır ki, cəmiyyətimiz dədə-babadan miras qalmış Novruz əxlaqi dəyərlərini bu gün də yaşadıb davam və inkişaf etdirməkdədir. Azərbaycan xalqı öz müstəqilliyini yenidən bərpa etdikdən sonra - 1993-cü ildə Novruz bayramı mərhum prezident, ulu öndər Heydər Əliyevin sərəncamı ilə ümumxalq bayramı elan edilmiş, onun üzərindən bütün qadağalar birdəfəlik götürülmüş, xalq Novruzu hər yerdə özünün böyük milli bayramı kimi kütləvi şənliklərlə qeyd etməyə başlamış, Novruz beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilərək dünyaya sürətlə yayılmağa başlamışdır.

Təbii ki, yüzilliklər ərzində böyük Novruz heç də həmişə birmənalı münasibətlə üzləşməmişdir. Onu qəbul edən tayfaların bir sıra yaz mərasimlərinin və regional bayramlarının Novruzla çarpazlaşma prosesi də baş vermiş, müəyyən tayfalar içərisində bayram özünün folklorlaşma həyatını da yaşamışdır. Türk tayfaları içərisində isə bu proses nisbətən daha güclü olmuşdur. Ayrı-ayrı tayfaların bir sıra kiçik, xırda İlaxır, İlbaşı mərasimləri Novruzla çarpazlaşmış, müxtəlif soylar içərisində isə onlar bəzən öz əski qəliblərini də qoruyub saxlaya bilmişdir. İslamı qəbul etməmiş qaqauzlar, tuvinlər, xakaslar başqa tayfa və soylar içərisində isə belə folklorlaşma daha rəngarəng olmuşdur. folklorlaşma bayramın bir sıra mərasimləri kimi hətta onun dörd müqəddəs çərşənbəsinin sıra düzümündən və adlarının təhrifindən də yan keçməmişdir.



Bayramı tam formatda keçirməyə imkanı olmayan, oturaq həyata qismən gec keçmiş, eləcə də Azərbaycan ərazisinə sonralar gəlmiş bir sıra tayfalar - tərəkəmələr, padarlar, azsaylı qonşu soylar içərisində daha fəal halda baş vermiş bu folklorlaşma nəticəsində otuz günlük Boz ay içərisində hər biri yeddi gündən ibarət dörd çərşənbənin sayı yeddiyə, bəzən də doqquza çatdırılmış, yaxud onların yalançı çərşənbə, kül çərşənbə, qara, ölülər çərşənbəsi və sair kimi məhəlli adlarla əlaqələndirilməsinə təşəbbüslər edilmişdir. Bununla da, Novruzu söykəndiyi dörd bəşəri kökdən-çərşənbələrdən məhrum edərək bayramı bayağılaşdırmağa, onu dünyanın yaz bayramları silsiləsindən ayırıb kiçiltməyə, ona İlaxır, İlbaşı kimi adlar verməklə Novruzu bir ulusda, soyda, obada keçirilən məhəlli bayram səviyyəsinə endirməyə cəhdlər göstərmişlər. Təəssüf ki, Novruzu təhrif edən belə yabançı hallara bu günün özündə də bir sıra mətbuat səhifələrində, radio və televiziya efirlərində, üzdəniraq kitab səhifələrində təsadüf olunur” (səh.75-77).

AMEA-nın müxbir üzvü, mərhum professor Azad Nəbiyevin ”Novruz sülh, dostluq və humanizm bayramıdır” adlı etnoqrafik oçerkindən geniş şəkildə gətirdiyim yuxarıdakı sitatda xalqımızın milli kimlik bayramı olan Novruz bayramına qarşı edilmiş (və edilməkdə olan) tarixi düşmənçiliklər bir daha bizi ayıq salmağa çağırışdır. Bu fikirlər sadəcə tarixi hadisələri xatırlatma deyil, eyni zamanda bir folklorşünasın qaldırdığı həyəcan səsi və həm də ki xəbərdarlığıdır. Burada bir tərəfdən sovet siyasi rejiminin Novruz bayramı üzərində qoyduğu qadağadan söhbət açılır, bir tərəfdən bu rejimə havadarlıq edən tarixi düşmənlərimiz olan ermənilərin (A.Mikoyanın, Levon Şaumyanın, Marietta Şaginyanın, Serqo Xanzadyanın və b.nın timsalında) Novruz bayramına qarşı düşmənçiliyi ilə milli düşmənçiliklərini apardıqları diqqətə çatdırılırsa, digər tərəfdən də öz içərimizdən bilərəkdən və ya bilməyərəkdən Novruz bayramına vurulan zərərdən bəhs olunur.

Bununla folklorşunas alim həyəcan siqnalı verib, xəbərdarlıq edir ki, Novruz bayramı ilə bağlı mətbuat səhifələrində, radio və televiziyalarda mütəxəssis fikri səsləndirilməlidir, folklorumuzun bilicilərı bu haqda mülahizələrini bildirməlidirlər. Əks halda görkəmli alimin dediyi kimi, ”Novruzu təhrif edən yabancı hallarla bu günün özündə də rastlaşacağıq”. Xalqın milli varlığının təcəssümü olan Novruz bayramı haqda yanlış-yabançı çıxışlar etmək özü də milli dəyərlərimizə qarşı vurulan yolverilməz zərbə hesab olunmalıdır. Hər bir halda xalqın milli-mənəvi həyatının ifadəsi olan müqəddəs dəyərlərlə bağlı və eyni zamanda bunun bariz nümunəsi kimi Novruz bayramı haqqında peşəkar mütəxəssis, görkəmli folklorşünas rəyi əsas götürülməli, hər təsadüfi adamın, qeyri-peşəkar şəxsin fikirləri ictimai dairələrə ayaq açmamalıdır. Əks təqdirdə yanlışlıqlar baş alıb gedər, yalanla həqiqət arasında çaşıb qalarıq.

Novruz bayramına qoyulan qadağalar tarixin müxtəlif dövrlərində xalqımıza qarşı aparılan siyasi-ideoloji zorakılıqlar idi. Belə ki, xalqın milli bayramına yasaq qoyulması elə həm də xalqın milli heysiyyətinə, milli şüuruna qarşı aparılan siyasi düşmənçilik demək idi. Novruz bayramına vurulan zərbələr isə həm bu cür vasitələrlə xarici düşmənlərimizdən gəlib, həm də bilərəkdən və ya bilməzlikdən daxilimizdən baş alıb gəlib. Bunun da bir sıra səbəbləri vardır.

**Birincisi.** Təəssüflər olsun ki, bəzən folklorşünaslarımız da da bayramın daxili məna qatlarına enə bilmədiklərindən, onun üzdən görünən cəhətlərinə müasir dövrün gözü ilə yanaşıb, yanlış düşüncədə olmuşlar və nəticədə düzgün olmayan fikirlər söyləmişlər. Halbuki Novruzun səsi - sorağı tarixin arxaik zamanlarından gəlir və o özlüyündə mifik dünyagörüşün əlamətlərini yaşadır. Buna görə də Novruz bayramında müşahidə olunan bir sıra qeyri-adiliklərə müasir dondan yanaşmaq səhvdir və bu xüsusda səhv, qeyri-elmi münasibət sərgiləmək özü də bayramın mahiyyətinə kölgə salmaqla ona istər-istəməz ciddi zərbələr vurur, ictimai dairədə çaşqınlıqlara yol açır.

**İkincisi.** Müstəqillik dövründə söz-mətbuat, ekran-efir azadlığından istifadə (əslində sui-istifadə) etməklə qeyri-peşəkarlar, folklorşünas olmayanlar da Novruz bayramı haqqında danışır, yazır, müsahibələr verirlər ki, yenə də Novruz bayramının əsl mahiyyəti kölgədə qalır və bu yöndən də yanlışlıqlar cəmiyyətə ayaq açır. Yenə də qeyri-obyektiv-münasibətin fonunda son nəticədə zərbə Novruza dəyir. Yəni mahiyyət kölgədə qaldığından, bayağı və bəsit düşüncə cəmiyyətə təqdim olunur və ictimaiyyətdə fikir çaşqınlığı yaradır.

**Üçüncüsü.** Novruz hamımızın bayramıdır. Buna görə də hamımız Novruzun içindəyik və onu hər il böyük təntənə ilə bayram edirik. Novruzun xoş ovqatı bizim həyatımıza, məişətimizə ,bir sözlə, daxili mənəvi dünyamıza köçdüyündən, Novruz bayramı da (öz sevinci, coşqusu ilə) bizim içimizdədir. Yəni biz Novruzla iç-içəyik, Novruz bizim içimizdədir, biz də Novruzun içində. Məhz bu səbəbdən də hər kəs Novruz bayramı ilə bağlı zəngin xoş təəssürata malikdir. Bu amil hər bir adamı Novruzla bağlı danışmağa, yazmağa, müsahibə verməyə sövq edə bilər. Ancaq bu məsələ hər bir sıravi vətəndaşın Novruz bayramı ilə bağlı hansısa illüzial fikir səsləndirməsinə, yanlış mülahizələr yürütməsinə haqq vermir. İnformasiya vermək olar, Novruzu bir fərd, toplum olaraq necə keçirmələri haqda məlumat vermək olar (əslində belə olmalıdır!). Folklorşünaslar isə eşitdikləri bu folklor materialı - söylənilən informasiya üzərində müşahidə və təhlillər aparmaqla mütəxəssis rəyi bildirməlidirlər. Təəssüf ki, belə olmur və nəticədə Novruzun mahiyyətini bilmədən onun haqqında yanlış mülahizələr söylənilir. Bax bu da Novruz bayramına vurulan bir zərbə olur. Yenə təkrar deyirəm: Novruz Bayramı zəngin adət-ənənələrlə keçirilir və xalqımızın hər bir nümayəndəsi bu mərasimi necə qarşıladığını, bayram etdiyini danışmağa borcludur. Amma bu informasiyanın zəminində bayramın ritual-mifoloji köklərini araşdırıb, mülahizə yürütmək artıq bu sahənin araşdırıcıları olan elm adamlarının işidir. Hər kəs öz vəzifəsini bilsə - informator eşidib-gördüyünü danışsa, folklorşünaslar da bu informasiyanın işığı ilə gedib tədqiqatlarını aparsalar, onda doğru-dürüst nəticələr əldə olunar, bayramımızı da yabançı zərbələrdən qoruyarıq.

**ALBALIYEV**

# YEL ÇƏRŞƏNBƏSİ

Yel çərşənbəsini üçüncü hesab edən professor A.Nəbiyev 4 cür - 4 libasda küləkdən bəhs edib, Azərbaycan mifologiyasında ağ libasda Ağ yelin, qara libasda Qara yelin, göy libasda Xəzrinin və qırmızı paltarda isə Gilavar küləyinin olduğunu diqqətə çəkib yazır:

“Yel çərşənbəsi günü Yel bu dördlüyün məcmusundan ibarət hesab olunur və qısa müddətdə bütün dünyanı dolaşır. Beləliklə, Yer üzərini gəzib dolanan Yel təsəvvürdə antropomorfik obraza çevrilir.

Daha erkən təsəvvürlərdə isə küləklə eyni kökdən olan yelin həqiqətən, kult və tanrı səviyyəsinə yüksəldiyi məlumdur. Belə ki, bir çox xalqların erkən təsəvvürlərində, eləcə də müqəddəs kitablarında Yel Ərzi idarə edən qüdrətli tanrılardan biri hesab olunur.

Əski inamlarda Yel ya özü tanrıdır, ya da dünyanı idarə edən tərəfindən göndərilən qüdrətli bir antropomorfdur. O, lazım olanda insanları əzizləyir, onlara kömək edir, qəzəblənəndə isə adamları cəzalandırır. “İncil” və “Zəbur”da Yel tanrısının qüdrəti vəsf olunur. “Tövrat”da isə dörd növ Yel ilahəsinin hər birinin özünəməxsus xüsusiyyətlərindən bəhs olunur.

“Quran”da isə Yelin Allah tərəfindən göndərildiyi, onun Allahın mərhəmət və cəza antropomorfu olduğu qeyd edilir.

Zərdüştilər də Küləyi müqəddəs saymış, onu tanrı hesab etmişlər. “Avesta”da deyilir ki, “...Yelin gücü qüdrətli Hörmüzün gücüdür... Yel Hörmüzdən güc alıb dünyaya ayaq açmışdır”.

Alimin fikirlərindən də bir daha məlum olur ki, qısa müddətdə bütün dünyanı gəzib-dolaşan Yel antropomorfik obraz kimi təsəvvür olunur. Eyni zamanda professor “İncil”, “Zəbur”, “Tövrat” kimi səmavi dini kitablarda da Yel tanrısından bəhs olunduğu, ”Quran”da Yelin Allah tərəfindən göndərildiyi, ”Avesta”da isə Yelin Hörmüzdən güc alması haqda dini-mifik görüşlərə də toxunur. Bütün bunlar isə kökü mifik - astronomik dünyagörüşlərdən qaynaqlanan Novruz bayramının tərkib hissəsi olan Yel çərşənbəsindəki Yel obrazının dini-mifik və real səciyyəsini bütövlükdə anlamağa əsas verir.

Yel çərşənbəsi bir fəsil kimi özlüyündə həm də yaz fəslini təcəssüm etdirir. Buradaca onu da qeyd edim ki, tədqiqatçılar arasında axırıncı çərşənbənin torpaq, yaxud Yel çərşənbəsi hesab olunması ilə bağlı fikir ixtilafları da mövcuddur. Mən də bir folklorşünas kimi Yel çərşənbəsinin üçüncü yox, dördüncü, yəni sonuncu ilaxır çərşənbə olduğu qənaətindəyəm. Çünki yel çərşənbəsi yaz fəslini işarələməklə baharın gəlişini müjdələyən çərşənbədir. Ona görə də Yel çərşənbəsi özünün ardınca bahar fəslinin - Novruzun özünü gətirir. Düzdür, prinsipcə baxanda, aralarında bir həftəlik zaman fərqi var, bu da bir tərəfdən götürdükdə elə də böyük zaman deyil. Ancaq elə həm də bunu böyük zaman hesabı kimi də qəbul eləmək olar. Çünki əgər hər həftəarası özlüyündə ilin dörddə biri hesab olunan bir fəsli simvollaşdırırsa, demək, bu həftələr böyük bir vaxt ölçüsünün yükünü özündə çəkən təbiətin ağır çillələri - çərşənbələri kimi də düşünülə bilər.

Ancaq mən bu yazıda bu məsələni o qədər də qabartmadan deyim ki, Yel çərşənbəsinin yaradıcı stixiyası Yel, külək olaraq qalır. Yel çərşənbəsində güdülən əsas məqsəd isə Yel ruhunu, Yel tanrısını razı salmaqdan ibarətdir. Yəni insanlar təqlidi-magik mərasimlər, ayinlər icra eləməklə, Yel tanrısının şərəfinə nəğmələr-mahnılar oxumaqla Yel ruhunu ram etməyə, onun dağıdıcı fəlakətindən xilas olub, xeyirxah təbiətini özlərinə doğru yönəltməyə cəhd edirlər. Bunu saysız sayda folklor örnəklərimiz də təsbit edir. Misal üçün, ”Yel baba mərasimi” adlı mətnə üz tutmaqla da bunun təzahürünü açıq-aydın şəkildə görmək olar:

“Xırmanda dəni samandan ayırmaq vaxtı gələndə camaat Yel babanı çağırıb deyir:

- Yel baba, gəl Ağ atına arpa-saman apar!

Bəzi yerlərdə ona nəğmə ilə də müraciət edirlər:

**- A Yel baba, Yel baba,**
**Tez gəl baba, gəl baba.**
**Sovur bizim xırmanı,**
**Atına ver samanı.**
**Dən yığılıb dağ olsun,**
**Yel babamız sağ olsun.**
**A Yel baba, Yel baba,**
**Qurban sənə, gəl baba.**
**Taxılımız yerdə qaldı,**
**Yaxamız əldə qaldı.**
**A Yel baba, Yel baba,**
**Qurban sənə, gəl baba.**
**Sovur bizim xırmanı,**
**Atına ver samanı,**
**Dən yığılıb dağ olsun,**
**Yel babamız sağ olsun.**

Əcdadlarımızın inamına görə, bu çağırışdan sonra Yel baba gəlib xırmanı sovurar, samanı aparıb öz atına verər, təmizlənmiş dən isə adamlara qalardı.

Xırman sovurulub, taxıl döyülüb qurtarandan sonra oxuyardılar:

**Xırmanda şana qaldı,**
**Yel əsdi, şana qaldı.**
**Xırmana bir qız gəldi,**
**Saçı nişana qaldı”.**

Mətndən görünür ki, Yel baba Ağ atı ilə birgə öyülüb - vəsf edilir. Ağ at ifadəsi burada bir tərəfdən yelin özünün gözəgörünməzliyinə - ağ, yəni gözəgörünməz şəffaf anlamında ağ rəngdə olmasına rəğmən işlədilib, digər tərəfdən məşhur Azərbaycan xalq nağılı olan ”Ağ atlı oğlan” nağılının da məzmunundan - qayəsindən gördüyümüz kimi, Ağ atlı oğlan xeyirxah və xilaskarlıq obrazını simvolizə edir. Bu məqamda mən özüm uşaq vaxtlarımdan eşitdiyim bir qarğış nümunəsini də xatırlayıram: ”Səni ağ yel əysin”. Burada ağ yel vasitəsilə insana zərər vurulması, sağlamlığına xətər yetirilməsi kimi bəddua arzulanır. Bu, nə deməkdir? Yel ruhunun - ağ yelin qəzəbinə tuş gəlmək qarğışı var burda. Deməli, Yel çərşənbəsində Yel babayla bağlı mərasimdə insanlar Yel babaya xoş getmək üçün və ondan xeyir-bərəkət, ruzi diləmək üçün ona əzizləyici sözlərlə üz tutub: ”Yel baba, gəl Ağ atına arpa-saman apar” deyirlər. Bu, Yel babanın ruhunun oxşanması və onun Ağ atına arpa-saman nəzir-niyaz edilməsi yolu ilə ondan xeyir-bərəkət istənilməsidir.

“Yel babamız sağ olsun” alqışı ilə ondan kömək istənilməsi - “Sovur bizim xırmanı” deyilməsi isə əski çağlardan - taxıl sovuran texnikanın və s. olmadığı dövrlərdən soraq verir. “Yel babamız sağ olsun”, “Qurban sənə, gəl baba” kimi alqış və çağırışlarda isə Yel ruhuna edilən xoşməramlı dualar bir daha magik-təqlidi üsulla Yel babanın - Yel tanrısının mərhəmətini və köməyini, yardımını qazanmağa xidmət edir.

Taxıl xırmanda sovrulub qurtarandan sonra oxunan nəğmədəki ”Xırmana bir qız gəldi, saçı nişanə qaldı” sözlərində isə ”Xırmana gələn qız” obrazı xalq təfəkküründə doğum - artım, bərəkət - bolluq timsalında öyülüb - vəsf edilmişdir.

Gətirdiyimiz mərasim nümunəsindən və nəğmədən də aydın görünür ki, Yel çərşənbəsində Yel tanrısının, yaxud tanrı tərəfindən göndərilən Yel ruhunun oxşanılması - əzizlənməsi müqabilində yelin sərt təbiəti yumşaldılır, yumşalan - həlimləşən yel (külək, hava) təbiətə - dünyaya ılıq nəfəs, isti meh, yumşaq külək şəklində ayaq basır və öz gülümsər çöhrəsi, nəvazişi ilə donmuş dünyaya təzə can bəxş edir. Yaz fəsli dedikdə təsəvvürümüzə ilk növbədə havaların istiləşməsi gəlir. Sərhəd bilməyən hava kütləsi öz ılıq nəfəsi ilə - hərarətverici mehi ilə bütün sərhədləri aşaraq ”qısa müddətdə bütün dünyanı dolaşır” - bütün kainata, yer və göy aləminə yaz havası, bahar küləyi gətirir. Beləcə, 4 yaradıcı həyat ünsüründən biri olan hava amili bahar nəsiminin timsalında yel, külək şəklində bütün aləmi yenidən cana gətirir. Təbiət qış yuxusundan oyanır, libasını soyunub müvəqqəti ölmüş, qış yuxusuna getmiş (yuxu da müvəqqəti ölüm kimidir!) cansız və canlı aləmə yeni həyat bəxş olunmuş olur. Külək vasitəsilə ağacların, bitkilərin tozlanması və s. kimi amillər də məhz yelin yaradıcı gücünün sayəsində gerçəkləşir. Bu kimi məsələləri də bir arada düşündükdə, havanın yaradıcı stixiyasındakı gücün mənzərəsini təkcə dini-mifoloji yox, həm də real baxımdan seyr etməyin mümkünlüyünü görərik.

**Əlifoğlu Şakir**

# Torpaq çərşənbəsi

**“Axır çərşənbə İlaxır çərşənbələrin mərasim, ayin, etiqad, oyun və şənliklərlə ən zəngin olanıdır. Burada əvvəlki çərşənbələrdə icra olunan bütün ayin və mərasimlər daha şən, kütləvi xalq şənlikləri kimi qeyd olunardı. Bu çərşənbənin şənlik və mərasimləri özünəməxsusluqlarla daha çox seçilərdi. Şənliklər sübh tezdən suya tapınma ayini ilə başlayardı. Adamlar su üstünə çıxar, su üstündən atdanar, dərdini, arzusunu suya danışar və ondan imdad diləridilər. xalqa qarşı ədalətsiz iş görənləri. ədavət salanları, nahaq qan tökənləri suya tapşırma xalq arasında geniş yayılmışdı. Bu çərşənbədə bir sıra başqa ayinlər də keçirilər, xalq günortaya qədər ayinləri icra edər, sonra isə havarçalar (yelləncəklər) asılar, başqa şənliklər başlardı.**

Axır çərşənbənin axşam şənlikləri daha gur keçirilərdi. Üzərlik yandırılar, tonqallar alovlanar, bacalardan torbalar sallanar, qurşaq atılar, qulaq falları qurulardı və s.

Axır çərşənbədə yeni əkiləcək torpaq sahələrində, əkin yerlərində kütləvi şənliklər keçirilərdi. Bir çox hallarda isə sayaçıların, cütçülərin nəğmələri, mərasimləri yada düşərdi. Ümumilikdə, axır çərşənbədə torpaq əzizlənər, adamlar torpağı təmizləməyə çıxar, bostan və dirriklərdə müxtəlif ayinlər icra edərdilər.

Odla bağlı şənliklər, əsasən, axşamtərəfi, qaş qaralanda başlar və gecəyarıya qədər davam edərdi.

Selə, Atəşə, Yelə və Torpağa tapınmanı bütövlükdə özündə əks etdirən Axır çərşənbə, İlaxır çərşənbələrin islamdan və zərdüştilikdən əvvəlki görüşlərlə daha çox bağlı olduğunu göstərir” (s.192-193).

Professor A.M.Nəbiyev “Torpaq çərşənbəsi” oçerkində İlaxır çərşənbə mərasiminin Selə, Atəşə, Yelə və Torpağa tapınmanı bütövlükdə özündə yaşatdığını göstərir. Bu fikir əslində İlaxır çərşənbəyə məntiqi baxımdan obyektiv elmi yanaşmanı əks etdirir. Özündən əvvəlki digər üç çərşənbənin ayin və mərasimlərini də özündə cəmləşdirməklə müşayiət olunan axır çərşənbə mahiyyətcə həm də bu çərşənbələr sıralanmasının yekun aktı, çərşənbələr silsiləsinin pik nöqtəsidir. Hər biri müvafiq olaraq yaradıcı təbiət stixiyasının qışın ağır çilləsindən xilasolma bayramı kimi keçirilən bu çərşənbə şənlikləri nəticədə öz yekun akkordunu Novruz bayramına təhvil-təslim edir. Bu təhvil-təslim coşqusu qışın ağır çillələri üzərindəki qələbə sevincini estafet olaraq Novruz bayramına ötürür. Kədər paylaşanda - bölüşəndə azaldığı kimi, sevinc hissləri də bölüşəndə çoxalır. Özündən əvvəlki üç çərşənbənin sevincini də öz üstünə qalaqlayan İlaxır çərşənbənin sevincin kulminasiya həddi kimi yüksək təmtəraqla müşayiət olunması təbiiliyi əks etdirir. Üstəgəl İlaxır çərşənbə də bu bayram coşqusunu estafet olaraq Novruz bayramına həvalə edir. Təbiətin sevinci ilə cəmiyyətin sevinci də bu məqamda üst-üstə düşməklə, necə deyərlər, M.Müşfiq demişkən, ”qiyamət üstündən qiyamət olur”. Təbiətin sirri budur: insan da təbiətlə həmrəy olanda, təbiətlə özün bütöv görəndə səmimiyyət və xoşbəxtlik yaşanır. İlaxır çərşənbə (eləcə də Novruz bayramı) mahiyyətcə təbiətlə cəmiyyətin bir araya gəlməsi, bütövlük nümayiş etdirməsi bayramıdır. İnsanlar bu bayramlarda sanki təbiətlə dil tapıb ünsiyyət qura bilirlər, təbiətin dili ilə danışmağı bacarırlar: “Adamlar dan yeri söküləndə bulaq başına gedər, axar suda əl-üzlərini yuyar, sonra arxın üstündən atlanardılar. Qız-gəlinlər səhənglərinin dibinə yeddi balaca daş salardılar. Özü də həmin daşları bulağın gözündən götürərdilər. Kişilər isə üç böyürtkən qanadı qırıb evə gətirər, qapının, darvazanın başına, ya da astanasına keçirərdilər. Səhəngə salınan yeddi daş, eləcə də böyürtkən qanadları o biri ilin son çərşənbəsinədək orda qalardı. Yeniyetmələr və cavanlar özləri gəzib qapı ağzına dəsmal, ya da papaq atardılar. Ev sahibləri onların papağına şirni, qoz, fındıq, qovurğa qoyub qaytarardılar. Əgər dəsmal atan oğlan birinin qızını istəsəydi, onda dəsmalın qırağını düyünləyərdi. Ata-ana qızlarını ona nişanlamağa razı olsa, dəsmalın düyününü açar və qızın belinə bağlayardı. Razı olmasalar, dəsmala şirni qoyub geri qaytarardılar”.

Tədqiqatçı Kəmalə Osmanovanın təqdimatından gətirdiyim bu folklor örnəyində adamların dan üzü bulaq başına getmələri və s. kimi ayin və hərəkətlər icra eləməyi fonunda sanki insanların təbiətlə - bulaqla, səhəngə bulağın gözündən yeddi daş götürüb atmaqla, habelə yeniyetmələrin qapılara dəsmal və ya papaq atmaqları ilə simvol dilində ürəklərində niyyət tutmaqla sorğu-suallarına həmin əşyalarla davranışın müqabilində cavab almaqları və s. bu kimi amillər elə bil ki, insanların təbiət dilində danışmalarıdır. Magik davranışlarla, rituallar vasitəsilə arzu-niyyətlərini ifadə eləmələri sosial ünsiyyətin bioloji-təbii əsaslarla baş tutmasıdır. Buna bəlkə də ”lal dili” də demək olar. Lal adamlar bir-birlərini hərəkət və mimikalarla anladıqları kimi, ilaxır çərşənbələrdə də tutulan niyyətə müvafiq olaraq görülən tədbirin nəticəsi - dəsmal atan oğlanın istədiyi qızla bağlı verdiyi üstüörtülü işarəyə aldığı rəmzi cavabın timsalında - təbiətin dilində əşyalar vasitəsilə aldığı cavab idi.

Bəli, İlaxır çərşənbənin (eləcə də Novruzun) sirli-sehrli əlamətlərindən biri də bu bayram(lar)da insanların təbiətlə bir aurada nəfəs almaları, hətta Süleyman peyğəmbərin bildiyi “quş dilinə” vaqif ola bilmələridir. Bizim üçün adi günlərdə edə bilməyəcəyimiz qeyri-adi hərəkətlərimizin məhz bu bayram günlərində təbiiliklə, adiliklə qarşılanması özü də ”quş dili”ndən xəbər verən əlamətdir. İlaxır çərşənbə ilə bağlı mövcud olan bir sıra ayinlərə və s. diqqət etməklə bir daha dediyimizin şahidi olarıq: ”İlin axır çərşənbəsi keçirilən fallar ən çox su kultu ilə bağlıdır. Novruz suyu ilə bağlı bir neçə falı nümunə göstərək: “İlin axır çərşənbəsində su dolusu kasa götürüf onun ucuna pambıq dolanmış iki iynə atırlar. Əgər iynələr bir-birlərinə yaxınlaşır, görüşürlərsə, onda ürəyinizdə tutduğunuz niyyətə çatacaqsınız” (12, 10). İnama görə “Novruz bayramı axşamı qızlar axar su yanına bir yumurta, iki (qara, qırmızı) karandaş qoyurlar. Səhər tezdən yumurtanı götürüb baxırlar. Əgər yumurtada qırmızı yazı varsa, onun taleyi yaxşı, qara yazı varsa, taleyi qara, pis olacaq (50, 38). İlkin su insanların təkcə taleyini müəyyənləşdirmir, eyni zamanda onları təmizləyir: ”Axır çərşənbə gejəsinin səhəri sübh tezdən duruf axar su üstünə getmək, suya salam verif, üstünnən üç dəfə atdanmaq, sonra da həmən sudan bir qab gətirib həyət-bacaya, evin dörd bucağına səpmək gərəkdi. Deyirlər ki, belə edəndə ilin xoş gələr, ağrı-acı görməzsən” (12, 10).

Ayrı-ayrı bölgələrə məxsus olan bu folklor nümunələrində xalqımızın bayramla bağlı mifik inanclara söykənən xoş diləkləri, pak arzu və niyyətləri özünün parlaq ifadəsini tapmışdır.

**El-obada addanar,**
**Şirin olar, daddanar.**
**Gah attanar, yellənər,**
**Gah alışar, oddanar.**

Açması Axır çərşənbə olan bu tapmacada da xalqımızın bayramla bağlı bədii-poetik düşüncələri ifadə olunmuşdur. Yaxud:

**Mal etsən malın olar,**
**Şanında balın olar.**
**Yazda, yayda çullanar,**
**Qış fəsli yalın olar.**

Cavabı torpaq olan bu tapmacada isə xalqımızın torpaqla bağlı metaforik düşüncələri əksini tapmışdır. Torpaq çərşənbəsinin keçirilməsindən əsas niyyət isə ”qış vaxtı yalın olan” torpağın əzizlənməsi hesabına əyninə baharın yaşıl libasının geyindirilməsi - tapmacada deyildiyi kimi, “yazda, yayda məxməri otlarla, rəngbərəng təbii örtüklə çullanmasıdır”. İlin sonuncu çərşənbəsini torpaq ünsürü ilə əlaqələndirən tədqiqatçılara görə, məhz torpaq çılpaq - yalın əyninə yaşıl libas geyinməklə qışın ağır çiləsindən qurtulmuş olur və beləliklə təbiət öz Bahar adlı zərli-zibalı, təravətli taxtına oturmuş olur. Tapmacaların ifadə olunduğu metaforik dil də əslində “quş dili” kimi möcüzəvi - əsrarəngiz bir dildir və insanlar bu füsunkar dillə də torpağı əzizləyib-öyməklə onu qışın ağır soyuq çilləsindən çıxarmağı düşünmüşlər. Beləliklə, torpağın payızda və qışda əynindən çıxartdığı yaşıl libasını təzədən əyninə taxmaqla onun məhsuldar olmasını və bol ruzi-bərəkət verməsini arzulamışlar. İlaxır çərşənbədən sonra gələn Novruz bayramı da özlüyündə elə barlı-bəhərli yaz fəslinin gəlişini simvollaşdırır.

**Şakir Albalıyev,**
AMEA-nın aparıcı
elmi işçisi, filologiya üzrə
fəlsəfə doktoru, dosent




*Dil xalqın maddi-mənəvi varlığını, onun tarixini, tarixi coğrafiyasını yaşadan ən nadir faktdır; dil bütünlükdə xalqı əks etdirən güzgüdür - xalq bu güzgünü təmiz, parlaq və şəffaf görmək istəyir. Bu güzgünün şəffaflığının təminatı yalnız və ancaq öz soy-kökündən olan sözlərin işlədilməsində, istifadəsində görünür. Bu gün Azərbaycan dilinin milli dövlətçiliyin əsas rəmz və atributlarından olaraq istifadəsi və məqsədəuyğun tətqiqi ölkədə linqvistik elmi sahəsində durumun daha da yaxşılaşdırılmasından ötrü optimal bir şərait yaratmışdır. Bununla yanaşı, elm və texnologiyaların intensiv inkişaf etdiyi indiki Qərbə yaxınlaşma dövrü (qloballaşma) doğma dilimizin zənginləşməsi və tətbiqi işlərinin, imkanlarının genişləndirilməsi istiqamətində aparılan və görülən tədbirlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir.*

# BÖLGƏLƏRDƏ AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN DÜZGÜN TƏTBİQ OLUNMASI PROBLEMLƏRİ

Həmin tələb Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Sərəncam İlham Əliyev tərəfindən imzalanmış və "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" adlanır.

Xeyli zamandır ki, ölkəmizdə sözügedən Dövlət Proqramının icrasına dair Tədbirlər Planı uğurla yerinə yetirilir. Tədbirlər Planının 6.2. Azərbaycan dilinin tədrisinin genişləndirilməsi bəndinin 6.2.3. hissəsi "Dövlət idarəçiliyində, kütləvi informasiya vasitələrində Azərbaycan ədəbi dilinin düzgün tətbiq olunması məqsədilə maarifləndirmə tədbirlərinin və treninqlərin təşkil edilməsi" işi həyata keçirilməkdədir.

Bölgələrdə də insanları maarifləndirmək məqsədilə qeyd edək ki, ədəbi dili bir neçə istiqamətdə başa düşmək lazımdır. Birincisi, ədəbi dilimizin tarixi; ikincisi, indi rəsmi dairələrdə istifadə etdiyimiz dil. Əlbəttə, ilk baxışda belə hesab etmək olar ki, ədəbi dil tarixi yalnız ədəbi dil norması tələblərinə cavab verən, məhz normalı, cilalı yazı materialını öyrənir, xalq danışıq dili abidələrindən sərf-nəzər edir. Bizim hər birimiz minimum həddə olsa da, ədəbi dil vərdişlərinə sahib olmalıyıq (yiyələnməliyik). Dədə-babalarımız hələ yazılı ədəbiyyatın mövcud olmadığı dövrlərdə şifahi ədəbi dildə ünsiyyət qurmuşlar. Bizim "Kitabi-Dədə Qorqud"umuz şifahi olaraq formalaşmış, sonralar yazıya köçürülmüşdür. Akademik Tofiq Hacıyevin fikrinə əsaslansaq, "adam-katib bu abidənin üzərinə yazılı ədəbi dilin möhürünü basmış, ona yazılı nitqin xeyli cizgilərini daxil etmişdir" (Hacıyev T.İ., Vəliyev K.N. Azərbaycan dili tarixi. Bakı, "Maarif", 1983:5) Azərbaycan ədəbi dili tarix boyu həm şifahi, həm də yazılı formalarda inkişaf etmişdir. Hər bir dövrdə bu dil öz missiyasını uğurla yerinə yetirmişdir. Amma giley-güzar ondan ibarət olmuşdur ki, ədəbi dildən bir sıra hallarda düzgün istifadə edə bilmirik. Bunun səbəbi nədir?

"Azərbaycan ədəbi dilinin düzgün tətbiq olunması məqsədilə maarifləndirmə tədbirlərinin və treninqlərin təşkil edilməsi" işini böyük uğur sayırıq.

Son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqəti çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad elementlərin üzə çıxarılması və qarşısının alınması yönündə dilçilər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarı ilə Dövlət dilinin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir. Dilin böyük sosial-siyasi hadisə və mənəvi həyatımızın mühüm amil olduğunu çox zaman unudaraq bəzi dövlət orqanlarında, telekanallarda ədəbi dil normalarının pozulması adi hala çevrilmişdir.

Dilə dövlət qayğısının səviyyəsi yüksəkdir. Ölkəmizdə Azərbaycan ədəbi dilinə böyük qayğı, hörmət vardır. Ədəbi dilimizin müstəqil dövlət kimi mövcudluğu, inkişafı və dünya miqyasında tanınmasında böyük xidmətlər göstərən rəhbərlərimiz var.

Bəli, dövlət dili kimi Azərbaycan dili xalqımıza ədəbi dil kimi xidmət göstərir. Dövlətin dilə qayğısı, əlbəttə, ictimaiyyəti razı salır, dilə nəzarət gücləndirilir. Ana dilinə qayğı ölkəmiz öz müstəqilliyini əldə etdikdən sonra daha da geniş vüsət almışdır.

"Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır. Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, onun söz və ifadə ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır" (Ulu öndər Heydər Əliyev). Ümummilli lider həmçinin göstərdi ki, ədəbi dil özünün anlaşıqlıq xarakterinə görə normaların vahidliyinə və sabitliyinə görə kütləviləşməlidir, yəni ayrı-ayrı təbəqə və ya sosial qrupların yox, hamının malı, hər kəsin milli və mənəvi sərvəti olmalıdır".

Dövlət adamının, milli dövlət düşüncəsi olan xadimin inersiyası dil və ədəbiyyat adamının inersiyasından, əlbəttə seçilir, belə ki, sənət adamı nə qədər dilin keşiyində dursa da, o, üslub, fərdi baçarıq nümayiş etdirir, dövlətçilik səviyyəsində xalqın dilini müdafiə edən lider isə ümummillilik, kütləvilik tərəfdarıdır. Odur ki, H.Əliyevin düşüncəsində əsas yeri Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərilmək tələbi mühüm yerlərdən birini tutur. Yazıçı dilin, nitq mədəniyyətinin, ədəbi normaların qanunvericisi olmalıdır. Təəssüf, elə yazıçılar var ki, bu tələblər səviyyəsində dura bilmirlər. Üstəlik, ayrı-ayrı yazıçılar təkcə danışıqlarında yox, həm də əsərlərində dil xətalarına yol verirlər".

Ulu öndər milli dövlətçilik düşüncəsi ilə çıxış etmiş, savadlı adamlardan haqlı olaraq normativ nitq mədəniyyəti tələb etmişdir.

Təkcə mərkəzdə deyil, dövlət səviyyəsində bölgələrdə də Azərbaycan ədəbi dilinin normativliyinin yüksəlməsindən ötrü vacib tədbirlər həyata keçirilir. Ədəbi dil məsələsinin təkcə elmi-intellektual deyil, həm də sosial-kütləvi maraqlarla əlaqəli olduğu bölgələrdə təbliğ olunmalıdır. Ədəbi dilin əsas sahibi xalqdır, dilin xarakteri, mentaliteti və s. xalqın müzakirəsinə verilməli, xalqla hesablaşılmalıdır. Xalqın iradəsi ilə ədəbi dillə bağlı mühüm qərarlar verilməlidir.

**Bölgələrdə də ədəbi dillə bağlı bəzi problemlər hələ də yaşanmaqdadır.**

*1.Təcrübə və dilə nəzarət (monitorinq) göstərir ki, bölgələrə məxsus dövlət idarələrində Azərbaycan ədəbi dilinin tətbiqi lazımi səviyyədə deyil;*

*2.Respublikanın beynəlxalq aləmə inteqrasiyası ilə bağlı olaraq Azərbaycana və onun rayonlarına gələn xarici şirkətlər və turistlər dövlət dilinə- ədəbi dilimizə müəyyən qədər laqeyd yanaşırlar;*

*3.Bölgələrdə bəzi vəzifə adamları hələ də latın əlifbasında yaza bilmirlər;*

*4.Bölgələrdə ədəbi dili-dövlət dilini yaxşı mənimsəməyən məmurlar var;*

*5. Bəzən bölgələrdə savadsız adamlar vəzifəyə götürülür;*

*6.Bölgə məktəblərində xarici dillərin tədrisi qənaətbəxş deyil və s.*

*Azərbaycan çoxmillətli və çoxdilli ölkədir, müşahidə olunur ki, etnik qruplar bəzən dövlət idarələrində öz dillərində ünsiyyət saxlayırlar.*

Azərbaycan ədəbi dili, əlbəttə, "düşüncələrdəki dərinliyi" - duyğulardakı incəlikləri bütünlükdə ifadə edir. Amma bəzi insanlar bu dili cavanlaşdırmaq istəyir və eyni zamanda dilimizin tarixini danır, ifadə imkanlarının məhdud olduğunu göstərirlər. Bu, ciddi məsələdir.

Ədəbi dilimizin tarixi xalqımızın etnogenezilə bağlıdır. Məlum olduğu kimi, bir sıra tarixçilər Azərbaycan dilinin (və xalqının) mənşəyini müxtəlif yad mənbələrə bağlayır, xalqla dil arasındakı üzvi əlaqəni inkar edirlər. Halbuki xalqımızın və dilimizin etnogenetikasında türk tayfaları önəmli rol oynamışdır.

Bizcə, bu gün Azərbaycan ədəbi dilinin yeni vəziyyətinin, xüsusən də normativlərinin uğurla yerinə yetirilməsi üçün bölgələrə mütəxəssislər dəvət olunmalı, rayon və kənd adamlarına ədəbi dillə bağlı yeniliklər verilməlidir.

Bu gün sosiolinqvistik amillər Azərbaycan ədəbi dilinin leksikonuna, danışıq sintaksisinə, diskurs (söhbət) və mətnlərinə ciddi təsir göstərir. Bu təsir ədəbi dilimizdə müxtəlif leksik və sintaktik yeniliklər bəzən də qələti-məşhur səciyyəli gəlişmələr olaraq da özünü göstərir. Əslinə qalanda modern Azərbaycan dilində özünü göstərən həmin gəlişmə və dəyişmələr, hər şeydən əvvəl, bölgələrdə müxtəlif sosiolinqvistik və dildənkənar təsirlərin nəticəsində gerçəkləşən yeni ədəbi dil normaları və normalaşmalarından başqa bir şey deyildir. Bu gün həmin normaların təkcə mərkəzdə leyil, bölgələrdə də gerçəkləşməsi danışıq alışqanlığı və ya vərdişi, ayrıca olaraq da dil-nitq yenilənməsi nəticəsində getdikcə normalaşan dil-nitq variantlarının işlənilmə sıxlığı ilə müşahidə olunur. Bu sıxlıqlar, hər şeydən əvvəl, dəyişməz və ya uzunmüddətli dönəmlərdə dəyişən dil normalarının variantları kimi də istifadə olunur. Bunlar ədəbi dildəki iyerarxik, sistematik və ardıcıl inkişafı təmin edən dil-nitq vahidlərinin statistik, struktur-semantik və konseptual-koqnitiv təsvirinə əsasən öyrənilir. Bölgələrdə yeni ədəbi dil normaları, normalaşmaları və alışqanlıqları kütlələrə başa salınmalıdır. Bölgə sakinləri də bilməlidirlər ki, XX əsrin son qərinələrindən etibarən dünyada yeni siyasi, iqtisadi, etnoqrafik, demoqrafik və kulturoloji bir qlobal düzən (sistem) gerçəkləşməyə başlamışdır. Belə bir düzənin gerçəkləşməsi dünyada özü ilə bərabər yeni bir dil-ünsiyyət ortamı və fərqli sosiolinqvistik şərtlər də gətirmişdir. Latın əsaslı əlifbaların işlənilmə funksiyaları və sahələri genişlənmişdir. Bir-birinə ən yaxın qohum dillər olan Avrasiya türk dilləri arasındakı əlaqələr də yeni bir ədəbi və danışıq dili istifadəsi müstəvisində inkişaf etməyə başlamışdır. Belə bir situasiyada Azərbaycan dilinin öz daxili imkanları hesabına yaranan yeni ifadə vasitələrinin, ələlxüsus da ayrı-ayrı yeni sözlərin işlənməsi prosesi getdikcə sürətlənməkdədir. Məs.: bölgələrdə də soyuducu, gündəm, çağdaş, yaşam, bağlantı, hədəf, yüz il (əsr), düzən (sistem), həftəsonu, canlı yayım, hava alanı, şəfqət bacısı, nəfəslik, aura, kompüter, monitor, not-buk, mobil telefon, media, örnək, bölgə, birlik, qatılmaq, terminal, tender, qlobal, sponsor və s. yeni sözlər işlənməkdədir. Bu cür funksional normalaşma, hər şeydən əvvəl, Azərbaycanın müstəqil bir dövlət, Azərbaycan ədəbi dilinin də onun rəsmi dövlət dili olmasına əsaslanır. Beləliklə, Azərbaycan ədəbi dili müstəqil rəsmi dövlət dili olmaqla bərabər, həm də ana dili və ortaq dildir. O, kütləvi informasiya vasitələri və texnologiyaların dili və ya qısaca olaraq e-dil kimi də ədəbi dildəki normalaşma və normaların müəyyənləşməsini şərtləndirməkdədir.



**İSMAYIL KAZIMOV,**
*professor*




## Şəhid Səbuhinin xatirəsi işığında

2023-cü ildə "Ecoprint" nəşriyyatında "Azərbaycanın fədakarlıq məktəbi" silsiləsindən 2-ci kitab kimi 44 günlük Vətən müharibəsi şəhidi Səbuhi Azər oğlu Əsədovun xatirəsi işığında "Şair-əsgər" kitabı işıq üzü görüb. Kitabın tərtibçiləri Azər Hacıbəyli və Göyərçin Çələbi Səlimlidirlər.

Kitabda 21 il həyatda ömür sürmüş Səbuhinin gənc, nakam ömür yolu xatirələrin izi ilə vərəqlənir. Eyni zamanda burada fotoşəkillər də təqdim olunur ki, bu da oxucu yaddaşında şəhid Səbuhi Əsədovla bağlı dolğun təsəvvür yaratmağa xidmət edir. Qeyd edim ki, Səbuhinin özünün ara-sıra yazdığı şeirlərdən də nümunənin daxil edildiyi bu topluda onun xatirəsi işığında yazılmış şeirlər vardır.

Kitab şəhid Səbuhi Əsədovu bu günkü və gələcək nəsillərə tanıtmaq baxımından mühüm əhəmiyyət daşıyır.

**Şakir Əlifoğlu**

## Şakir Albalıyevin İranda fars və Azərbaycan dillərində kitabı işıq üzü görüb

"Xudafərin" qəzetinin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Şakir Əlif oğlu Albalıyevin Tehranda və Təbrizdə kitabı nəşr olunub. "Bayramların nəzəri əsasları və Azərbaycanda Novruz bayramı"("Məbaniye - nəzəriye əyad və eydi Novruz dər Azərbaycan") adlı monoqrafiyanı fars dilinə yazar-tərcüməçi Səhra xanım Rzayi-Zəncanlı tərcümə edib.



İran İslam Respublikasında işıq üzü görən kitab Tehranda farsdilli oxucular üçün fars dilində, cənublu soydaşlarımız üçün isə Təbrizdə ərəb əlifbası ilə Azərbaycan dilində yayımlanıb. Qeyd edək ki, Ş.Albalıyevin kitabı İranda çox böyük maraqla qarşılanıb. Müəllifi bu uğura görə alqışlayırıq və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.



“Xudafərin harayından qalan mən!..”
XUDAFƏRİN

**Mən 2016-cı ildən Azərbaycan ədəbiyyatı və mədəniyyətinə dair kitabların İranda fars dilinə tərcümə edilməsi və həm də ərəb əlifbasına çevrilib Azərbaycan dilində də kitab halında nəşr edilib oxuculara çatdırılması ilə məşğul oluram.**

# Novruz bayramının monoqrafik tədqiqi

İndiyə kimi 25-dən çox kitabın tərcüməsini etmişəm. Məqsədim Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə bağlı qiymətli əsərləri İranda oxuculara çatdırmaqdır. Çünki böyük ədəbiyyat da, əsl mədəniyyət də sözün həqiqi mənasında bütövlükdə bəşəriyyətə, dünyaya xidmət edir. O cümlədən İranda azərbaycanlılar yaşayır ki, onların da Şimali Azərbaycan yazarlarının, alimlərinin əsərləri ilə tanış olması da onlar üçün çox maraqlı və qiymətlidir.

Bu günlərdə mən Azərbaycandan olan folklorşünas alim, AMEA-nın Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Albalıyev Şakir Əlif oğlunun, “Azərbaycanda Novruz bayramı” kitabını fars dilinə tərcümə eləyib, nəşr etdirdim. Sevinc və qürur hissi ilə qeyd edim ki, bu kitab İranda oxucular arasında çox böyük sevgi ilə və maraqla qarşılandı, insanların böyük rəğbətini qazandı. Mən kitabın






İranda oxucular tərəfindən böyük sevinclə qarşılanacağını etiraf edim ki, bilirdim. Nəyə görə bilirdim? Ona görə ki, bir tərcüməçi kimi mən bu kitabı ilk dəfə oxuyarkən və həm də tərcümə edərkən mənim özüm üçün də çox maraqlı və cəlbedici oldu.

Belə ki, Novruz bayramı bütün Azərbaycanda, İranda, bir çox Şərq ölkələrində, islam dünyasında böyük coşqu ilə, sevinclə, təmtəraqla keçirdilər. Bu, hamıya məlumdur. Ancaq Şakir Albalıyevin kitabında kökü çox qədimlərdən gələn Novruz bayramı haqqında, eləcə də Novruz bayramının ayrılmaz tərkib hissəsi kimi tədqim edilən İlaxır çərşənbələr barəsində çox qiymətli fikirlər ifadəsini tapmışdır. Alim Novruz bayramının təkcə Azərbaycanda deyil, İranda da, digər İslam-şərq ölkələrində də böyük bayram şəklində keçirildiyini göstərir. Bildirir ki, bu bayram ortaq coğrafiyada yaşayan xalqların müştərək və sevimli bayramıdır. Türklər tərəfindən də, farslar tərəfindən də, eləcə də dünyanın bir çox xalqları tərəfindən də böyük təntənə ilə keçirilən Novruz bayramının bütün sosial-fəlsəfi mahiyyəti kitabda çox aydın şəkildə izah olunur. Həmçinin Novruz bayramının bütün insanlar üçün mehribanlıq, insanlar arasında dostluq, qardaşlıq yaradan və insanları sülhə səsləyən bayram olduğu bayramın özünün adət-ənənələrindən çıxış edilərək əsaslandırılır.

Bax bu mənada kitabın mövzusu da, ideyası-qayəsi də, yazılma prinsipləri də, insanlara Novruz bayramının əsas mahiyyətini başa salmaq missiyası da oxucular arasında kitabın sevilməsinə səbəb olmuşdur.

Kitabı oxuculara sevdirən cəhətlər çoxdur. Onlardan biri də mənim üçün də çox maraqlı olan ilaxır çərşənbələr barəsində verilən dürüst informasiyalar və unudulmaqda olan adət-ənənələrin dolğun şəkildə çatdırılmasıdır. Mən şəxsən ailəmizdə atamdan-anamdan Novruz bayramı və çərşənbələr barəsində nağıl kimi eştdiklərim məsələlərin də kitabda öz əksini tapdığını görəndə çox sevindim. Misal üçün, bizlərdə ancaq ilin axırıncı çərşənbəsi və Novruz bayramı böyük coşqu ilə və həvəslə bayram edilir. Amma mən Şakir Albalıyevin kitabında dörd çərşənbədən söhbət açıldığının şahidi oldum. Hər biri özlüyündə bir yaradılış ünsürü ilə - yəni su ilə, od ilə, torpaq ilə və hava ilə bağlı olan bu çərşənbələr İranda artıq az qala unudulub yaddan çıxmaqdadır. Məhz bu dörd çərşənbənin hər biri haqqında da kitabda elmi baxımdan mükəmməl məlumat və izahların verilməsi bir tərcüməçi-yazar kimi mənim üçün çox maraqlı və yeni biliklər deməkdir. Eyni zamanda elə bilirəm ki, bir oxucu və həm də tərcüməçi kimi mənim timsalımda bu kimi cəhətlərin bütün oxucular arasında da maraq doğurması təbiidir.

Folklorşünas-alim Şakir Albalıyevin “Azərbaycanda Novruz bayramı” kitabı həm geniş oxucu auditoruyası üçün, həm də elmi ictimaiyyət üçün çox dəyərli bir əsərdir. Hər şeydən öncə, bu monoqrafiya həm də xalqlar arası, ölkələrarası mədəniyyətin öyrənilməsi və təbliği, təşviqi baxımından çox dəyərli və mühüm əhəmiyyətə malikdir.



**Səhra Rzayi-Zəncanlı**
*yazar-tərcüməçi*

# BAHAR BAYRAMI, EL ŞƏNLİYİ

Gözəl təbii-coğrafi şəraiti, bol neməti, zəngin yeraltı və yerüstü sərvəti olan Azərbaycanıma daha bir xoşbəxtlik üz verdi. Məlum qərardan sonra xalqımız rəsmi olaraq Bahar (Novruz) bayramını açıq şəkildə keçirdir. Hər il hamının həsrətlə gözlədiyi Novruz 70 ildən artıq idi ki, açıq şəkildə qeyd edilməmişdir. Çünki sovet dönəmində ona dini don geydirib keçirilməsini birdəfəlik qadağan etmişdilər. Hətta cəza alanlarımız da olmuşdur.

Hər xalqın, hər elin, obanın, hər millətin öz bayramı, öz müqəddəs adət-ənənəsi var. Bəli, digər xalqlar kimi Azərbaycan xalqının da ən əziz, ən sevimli bayramlarından biri Novruzdur. Hələ eramızdan əvvəl qədim azərbaycanlıların Novruz bayramını qeyd etdiyini dahi şairimiz Nizami Gəncəvi “İsgəndərnamə” əsərində göstərmişdir.

Bayram və mərasimlər cürbəcürdür, müxtəlifdir: məhsul bayramı, şum və səpin bayramı, idman bayramı, poeziya bayramları, məktəb bayramları və s. Lakin bu bayramlar içərisində ənənəvi xalq bayramı olan Novruzun öz xüsusi yeri var. Bu əvəzsiz el şənliyini heç bir bayrama bənzətmək olmaz.

Novruz nəinki bizim respublikamızda, həm də Türkiyədə, Orta Asiyada, Pakistan və Əfqanıstanda, İranda və başqa Şərq ölkələrində maraqlı keçirilir.

“Novruz” fars sözü olub yeni gün deməkdir. “Nov” - yeni, “ruz” isə gün mənasını bildirir, yəni baharın ilk günü.

Novruz şənlik, şadlıq, sevinc bayramıdır. Bu bayram mart ayının 21-22-də yaz fəslinin başlanmasına təsadüf edir. Baharın gəlişi ilə artıq təbiət oyanır, torpağa bərəkət gəlir. Torpaq öz varını, sərvətini əsirgəməyərək bütün qüvvəsini hər şeyin oyanmasına sərf edir. İlin ən əziz günləridir yaz. Yaz - təravətdir, gənclikdir, xoşbəxtlikdir, nemətdir, məhəbbətdir, yaz nəğmədir, gül-çiçəkdir...

Azərbaycan Sasanilər dövlətinin banisi, dövlət xadimi və şair Ş.İ.Xətai “Dəhnamə” əsərində baharın gəlişini necə də gözəl təsvir etmişdir.

**Qış getdi, yenə bahar gəldi,**
**Gül bitdivü lalezar gəldi,**
**Quşlar qamusu fəğanə düşdü,**
**Eşq odu yenə bu canə düşdü...**

İstər klassik, istərsə də müasir ədəbiyyatda elə bir şair və yazıçı yoxdur ki, o, öz əsərində Novruzu təsvir etməsin, onu tərifləməsin.

Novruz bayramının keçirilməsi gününə qədər ilin dörd çərşənbəsi qeyd edilir: su çərşənbəsi, od çərşənbəsi, torpaq çərşənbəsi və yel çərşənbəsi. Bu çərşənbələrdə axşamlar tonqal qalanır və hamı sıra ilə bu tonqalın üstündən tullanır. Hər tullananda da “Ağırlığım, uğurluğum, tökül get” ifadəsi təkrar edilir. Yəni insan orqanizmində nə xəstəliyi, nə azar-bezarı varsa köhnə ildə qalsın, sağlam bədən, yeni ruh, yeni həyat başlansın. Bu ənənə su üstündə tullanmaqla da davam etdirilir.

İlin axır çərşənbəsində, Novruzqabağı evin paltarını, yorğan-döşəyi çölə töküb təmizləyirlər. Palazlar, kilimlər, xalılar, evin hətta bütün şeyləri, qab-qacaq belə təmizlənir.

Bayrama yaxın qovurğa qovrulur, yumurta boyanır. İlin axır çərşənbəsində uşaqlar cürbəcür oyunlar keçirir. Kosa-kosa oyunu oynayırlar. Onlar qapı-qapı gəzərək evlərə papaq atır, pay alırlar. Buna çərşənbə payı deyirlər. Bu çərşənbə payını qovurğa, boyanmış yumurta, şirniyyat və s. təşkil edir. Kimin gücü nəyə çatırsa, qapıya gələnə həmin çərşənbə payından verir.

Bütün bunların qeyd edilməsi Novruza hazırlıqdır. Bu müddət ərzində müxtəlif qablarda, nimçələrdə səməni də göyərdilir. Səməni göyərtmək ilin bolluğu, niyyətin gerçəkliyidir. Bəzi yerlərdə hətta səməni halvası da bişirilir.

Novruz bayramı ərəfəsində hər evdə qoğal, şəkərbura, şəkərçörəyi, paxlava bişirilir. Sinilərdə, məcməyilərdə və başqa qablarda dadlı nemətlər - fındıq, qoz, şabalıd, noğul, iydə, tut qurusu, rəngbərəng yumurta yığılıb süfrəyə qoyulur. Növ-növ ləziz xörəklər də hazırlanır. Bu cür hazırlanmış bahar süfrəsi daha dəstgahlı, təmtəraqlı olur.

Belə bir xoş gündə xoş arzular da çiçək açsın. Hamı məqsədinə nail olsun. Elimizə, obamıza, yurdumuza, torpağımıza, xalqımıza həmişə sevinc gəlsin, bayram qismət olsun. Xalqımız heç vaxt pis gün görməsin. Bu xeyir-dua xalqımıza daim xoşbəxtlik bəxş etsin. Novruz bayramın mübarək, əziz xalqım! Həmişə başın uca, alnın açıq, üzün ağ olsun!



**Nəriman SEYİDƏLİYEV,**
*filologiya elmləri doktoru*



**İSMAYIL MƏRCANLI İMANZADƏ**

## NEYLƏYİM

Bilmirəm neyləyim ki
Gözümdə yaş qalmasın.
”Ətəyimdə” kiməsə
Atmağa daş qalmasın.

Bu alın yazısımı...
Tale fəndgir, mən naşı.
Doğulandan gedirəm
Əcəlimlə yanaşı.

Kaş nə əllərim əsə,
Nə ayağım sürüşə.
Ömrün yükü çiynimdən
Elə qəfildən düşə...

*06.01.2023*

## ADAMIN

Bəxt kəsir bəndin-bərəsin
“Dişi batdığı” adamın.
İllər “şirəsin” sümürür
Başın qatdığı adamın.

Öz şəkli var öz səsində,
Dərd yurd salıb həvəsində...
Bəxti hər gün sinəsində
Ocaq çatdığı adamın.

Bitmir taleyin oyunu,
Cəng-savaş qanla yuyunur.
Ölüm “oxşayır” boyunu
Gözü tutduğu adamın...

*07.01.2023*

## NİCAT GÖZLƏYİRİK...

Mən susuzluqdan
Dodaqları çatlayan
Torpağam,
Sənsə nakam sevgimizin
Közərtisində
Qovrulmuş bir xışma dən.
Bircə zərrə ümid işartısına
Üzümüzü söykəyib,
Nicat diləyirik
Həm bəxtdən, həm də taledən...

*25.02.2023*

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti**

**Misirxanov Elxan Çırağəli oğlu, Mirimli Mehdi Rövşən oğlu, İsmayılova Firuzə Məhəmməd qızı, Əzizov Firat Hüseyn oğlu, Maqsudov Əsgər Azadxan oğlu, Mehdiyeva Birgül Mustafa qızı, Balakişiyev Fərhad Mustafa oğlu, Quliyev Qurban Həzrətqulu oğlu, Fərhadov Laçın Əhməd oğlu, Mehdiyeva Çiçək Camal qızı və Əhmədov Habil Famil oğlunun**

vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Baş redaktor:
Şakir Əlif oğlu
ALBALIYEV

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**CİF 1209641**
**H/h:55233080000**
**kod: 200123**
**VÖEN: 9900003611**
**SWIFT kod: AIIBAZ2X**
**M/h: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ27IIB410100C9443130139112**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
“Azərbaycan” nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet “Xudafərin” qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 791**
**Tiraj: 2000**